# QARABAĞ AZƏRBAYCANDIR!


# ELM НАУКА

Qüvvət elmdədir...
Nizami Gəncəvi

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

№ 23 (1258) ❖ Cümə, 27 noyabr 2020-ci il ❖ Qəzet 1984-cü ildən nəşr olunur




## Prezident İlham Əliyev: “Kəlbəcər bizimdir!”

**Noyabrın 25-i Kəlbəcər rayonu işğaldan azad olunub. Prezident İlham Əliyev bu münasibətlə xalqa müraciət edib.**

Dövlətimizin başçısı xalqımızın bu günü uzun illərdir səbirsizliklə gözlədiyini deyib: ”Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də işğal edilmişdir. Günahsız insanlar öz dədə-baba torpağından vəhşicəsinə qovulmuşdur. Kəlbəcərin tarixi abidələrinə, təbiətinə böyük ziyan vurulmuşdur. Hər kəs yaxşı bilir ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan Respublikası ilə sərhədi yox idi. Ermənistanı Dağlıq Qarabağdan Laçın rayonu ayırırdı, Laçın dəhlizi ayırırdı. Laçın, Şuşa və ondan sonra Kəlbəcər rayonlarının işğal altına düşməsi böyük ərazidə Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratdı və düşmənin məqsədi məhz bundan ibarət idi. Kəlbəcərin işğal altına düşməsindən sonra demək olar ki, Ermənistanla Dağlıq Qarabağ arasında bir çox yollar vasitəsilə əlaqə yaradıldı və ilk növbədə, silahlar, texnikalar, canlı qüvvə göndərilmişdir. Eyni zamanda, Ermənistanın sonrakı işğalçılıq siyasətinə də bu, böyük üstünlüklər təmin etmişdir”.

Prezident İlham Əliyev Kəlbəcər rayonunun işğal altına düşməsini o vaxt hakimiyyətdə olmuş Azərbaycan Xalq Cəbhəsinin birbaşa məsuliyyəti olduğunu deyib. Bütövlükdə torpaqlarımızın işğal altına düşməsində əsas günahkarın Azərbaycan Xalq Cəbhəsi olduğunu qeyd edib: ”Əgər Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə gəlməsəydi, Azərbaycan nəinki öz qalan torpaqlarını itirəcəkdi, ümumiyyətlə, dövlətçilik əldən gedəcəkdi. Öz laxlamış hakimiyyətini saxlamaq üçün vətəndaş müharibəsi başlamışdılar. Öz əsgərlərini əsir götürmüşdülər. Gəncəni bombalamışdılar. Bunu heç kim unutmasın! Bilməyənlər bilsinlər və gənc nəsil bunu bilsin, kim bizi bu bəlaya saldı? Kim bu bəlanın səbəbkarıdır? Kim bir milyon insanın ağır vəziyyətə düşməsinin səbəbkarıdır? O vaxtkı Azərbaycan Xalq Cəbhəsi hakimiyyəti. Əslində, indi paralel aparsaq, onların obrazı elə bil kollektiv Paşinyandır - savadsız, biliksiz, iradəsiz, qorxaq, fərari, idarəetmədə heç bir təcrübəsi olmayan, xarici dairələrin təsiri altında olan, onların əli ilə idarə olunan və öz ölkəsini məhv edən. Bax, kollektiv Paşinyandır onlar. Onları tanımayanlar, əgər onlar haqqında hər hansı bir təsəvvür yaratmaq istəsələr, Paşinyana baxsınlar. Onun addımlarına baxsınlar və onun simasında o vaxtkı Azərbaycan Xalq Cəbhəsinin və ölkə rəhbərliyinin simasını görəcəklər”.

”Kəlbəcər bizim qədim torpağımızdır. Qədim Azərbaycan torpağıdır. Kəlbəcər ərazi baxımından bizim ən böyük rayonlarımızdan biridir. Kəlbəcərin tarixi abidələri bizim böyük sərvətimizdir. Həm məscidlər, həm kilsələr bizim tarixi sərvətimizdir. Azərbaycan xalqı onu yaxşı bilir və bütün dünya bilməlidir ki, Kəlbəcərdə mövcud olan kilsələr qədim Qafqaz Albaniyası dövlətinə məxsusdur. Bunu təsdiqləyən bir çox tarixi sənədlər var. Bu, heç kəsə sirr deyil. Sadəcə olaraq, erməni ”tarixçiləri” və saxtakarlar qədim alban kilsələrini saxtakarlıqla erməniləşdiriblər, öz yazılarını oraya əlavə ediblər və bu kilsələri özününküləşdiriblər”, - deyə Prezident İlham Əliyev diqqətə çatdırıb.

Dövlətimizin başçısı Kəlbəcər rayonunun füsunkar təbiəti, zəngin mədəni irsindən də danışıb. Bir neçə böyük çayımızın mənbəyinin məhz bu rayonda olduğunu deyib.

Ölkə başçısı 1970-ci illərdə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Sərsəng su anbarının iqtisadi və ekoloji əhəmiyyətindən, rayonun böyük meşə ərazilərində mənfur düşmənin yaratdığı ekoloji facıə və fəlakətlərdən də söz açıb. Qələbəmizin təkcə Ermənistan dövləti üzərində əldə edilmiş qələbə deyil, həm də erməni faşizminin məhvi demək olduğunu qeyd edib.

”Biz Kəlbəcəri bərpa edəcəyik, heç kimin şübhəsi olmasın və həyat qayıdacaq. Kəlbəcərdə kənd təsərrüfatı inkişaf edəcək, xüsusilə heyvandarlıq. Bizim orada böyük otlaq sahələrimiz var. Kəlbəcərin zəngin təbii qaynaqları, təbii ehtiyatları var. Düşmən bu ehtiyatları vəhşicəsinə istismar edib. Sovet vaxtında bütün sovet məkanında məşhur olan İstisu suyu Kəlbəcərdə istehsal olunurdu. İndi İstisu da bizim nəzarətimizə qayıdır. Vaxtilə ora böyük kurort zonası idi. Mənfur düşmən hər tərəfi dağıdıb. İndi o görüntülər var, hər kəs görə bilər. Hamısını bərpa edəcəyik, Kəlbəcəri yenidən quracağıq, kəndləri, Kəlbəcər şəhərini” , - deyə Prezident İlham Əliyev bildirib.

Prezident İlham Əliyev müraciətində Kəlbəcərdə mənfur düşmənin qanunsuz məskunlaşma aparması məsələsinə də toxunub və Cenevrə Konvensiyasına görə bunun hərbi cinayət olduğunu söyləyib.

Dövlətimizin başçısı beynəlxalq təşkilatlar və böyük dövlətlərin liderləri ilə münaqişənin həlli istiqamətində danışıqlar dövrünün müxtəlif mərhələlərinə diqqət çəkib: ”Mən Prezident kimi bu illər ərzində əlimdən gələni edirdim ki, Dağlıq Qarabağ məsələsi daim gündəlikdə olsun, özü də daim gündəliyin mərkəzində olsun. Həm ölkə daxilində vətənpərvərlik, milli qürur, həmrəylik hissləri daha da yüksək səviyyəyə qalxsın. Həm beynəlxalq müstəvidə daim bu məsələ gündəlikdə olsun. Hər kəs bilsin, həqiqət nədən ibarətdir, hər kəs bilsin, təcavüzkar kimdir, zərərçəkmiş tərəf kimdir və biz buna nail olduq. ...Biz döyüş meydanında qələbə qazandıq, informasiya məkanında qələbə qazandıq, siyasi müstəvidə qələbə qazandıq”.

”Mən ilk günlərdən deyirdim ki, bu məsələ öz həllini hərbi, siyasi yollarla tapmalıdır. Deyirdim ki, biz məsələnin hərbi yollarla həllinə hər an dayandıra biləri̇k və buna hazırıq. Bir şərtlə, Paşinyan şəxsən özü deməlidir ki, nə vaxt o, bizim torpaqlarımızdan çıxır. Öhdəlik götürməlidir, tarix verməlidir. Halbuki o vaxt o, 7 şərti bizə irəli sürəndə demişəm: Mənim bir şərtim var, - sənin yeddi şərtini zibil yeşiyinə atıram, - rədd ol, çıx get torpağımızdan. Öz xoşunla çıx get. Əgər qulaq assaydı, bu rəzil vəziyyətə düşməzdi. Müharibənin nəticələri də mən deyən kimi oldu. Biz Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Murovdağı, Suqovuşanı, Hadrutu, Xocavənd rayonunun böyük hissəsini və Şuşanı hərbi yollarla azad etdik. Döyüş meydanında düşmənin belini qırdıq. Şuşanın azad olunmasından bir gün sonra 70-dən çox kəndin azad edilməsi ilə düşmən diz çökdü, kapitulyasiya aktına imza atdı. Hələ ki, bilmirəm harada. Bunu gizlədirlər. Yəqin ki, nə vaxtsa bizə deyəcəklər. Paşinyan, harada imzalamısan sən bu kapitulyasiya aktını? Ancaq məcbur olub bizim şərtlərimizi qəbul edib”, - deyə dövlət başçısı əlavə edib.

Prezident İlham Əliyev müraciətinin sonunda Ermənistanın məğlub, Azərbaycanın isə zəfər çalmış ölkə olduğunu bir daha vurğulayıb, Kəlbəcər bizimdir! Qarabağ Azərbaycandır! şüarlarını səsləndirib.



**Akademik Ramiz Mehdiyev: "Akademiya ciddi addımlar atmalı, erməni saxtakarlıqları ilə dolu "faktların" qarşısının alınması istiqamətində tədqiqatları gücləndirməlidir"**

səh. 3 ⇨




**Alimlərimiz Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayırlar**

səh. 4 ⇨




**Zirvədən dünyaya səslənən Azərbaycan**

səh. 6 ⇨




**28 illik dinməyən göz yaşları**

səh. 7 ⇨

# AMEA alimlərinin hazırladığı su ehtiyatlarından səmərəli istifadəyə dair Dövlət Proqramının layihəsi müzakirə olunub

**Noyabrın 20-də Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin növbəti iclası keçirilib.**

























İclasda AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev, AMEA-nın birinci vitse-prezidentləri, akademiklər İsa Həbibbəyli və İbrahim Quliyev, AMEA-nın vitse-prezidentləri, akademiklər - Tofiq Nağıyev, Dilqəm Tağıyev, İradə Hüseynova, Rasim Əliquliyev, akademiyanın akademik-katibi, AMEA-nın müxbir üzvü Əminağa Sadıqov və Rəyasət Heyətinin digər üzvü, akademik Gövhər Baxşəliyeva iştirak ediblər.

Əvvəlcə AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev akademik Kamal Abdullayevə 70 illik yubileyi münasibətilə AMEA-nın Fəxri fərmanını təqdim edib.

Tədbiri AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev açaraq iclasın gündəliyi barədə iştirakçılara məlumat verib.

Akademik-katib, AMEA-nın müxbir üzvü Əminağa Sadıqov yığıncağın gündəliyinə çıxarılan ilk məsələnin AMEA-nın Yer, Biologiya və Tibb Elmləri bölmələri tərəfindən hazırlanmış "Azərbaycanın su mənbələrinin qiymətləndirilməsi, qorunması və su ehtiyatlarından səmərəli istifadə edilməsinə dair 2021-2024-cü illər üzrə Dövlət Proqramı"nın layihəsi haqqında olduğunu bildirib.

Mövzu ilə bağlı çıxış edən akademik Ramiz Mehdiyev ölkə ərazisində mövcud olan su çatışmazlığı və su anbarlarında yaranmış vəziyyət nəzərə alınaraq, həmçinin su ehtiyatlarının artırılması, istehlakçıların içməli su və suvarma suyu ilə təchizatının yaxşılaşdırılması məqsədilə Prezident İlham Əliyev tərəfindən "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 27 iyul 2020-ci il tarixli Sərəncam imzalandığını xatırladıb. Qeyd edib ki, Sərəncama əsasən, "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı" təsdiq edilib, Tədbirlər planının icrası ilə bağlı dövlət qurumlarına müvafiq tapşırıqlar verilib.

Akademik Ramiz Mehdiyev sözügedən Sərəncamdan irəli gələrək bu ilin avqust ayında AMEA Rəyasət Heyətinin iclasında ölkədə su təsərrüfatının vəziyyətinin yaxşılaşdırılması sahəsində geniş elmi tədqiqatların aparılmasına dair müzakirələrin keçirildiyini və akademiyada tanınmış alimlərdən ibarət İşçi Qrupunun yaradıldığını söyləyib. Diqqətə çatdırıb ki, prioritet istiqamətlərlə bağlı hazırlanmış təkliflər elmi bölmələrdə müzakirə edilərək müəyyənləşdirilib və yekunda "Azərbaycanın su mənbələrinin qiymətləndirilməsi, qorunması və su ehtiyatlarından səmərəli istifadə edilməsinə dair 2021-2024-cü illər üzrə Dövlət Proqramı"nın layihəsi hazırlanıb.

Sonra sözügedən Dövlət Proqramı təqdim edilib. Bildirilib ki, Dövlət Proqramının layihəsi Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti ilə razılaşdırılıb.

Respublikamızın su ehtiyatlarının təxminən 80%-nin kənd təsərrüfatı sektorunda istifadə edildiyi, lakin suvarma kanallarında və eləcə də suvarma sahələrində infiltrasiya nəticəsində sugötürücüdən götürülən suyun həcminin orta hesabla 50%-ə yaxınının itirildiyi vurğulanıb. Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikasında əhalinin artımı və iqtisadiyyatın davamlı inkişafı, su ehtiyatlarından istifadəni intensivləşdirərək onların daha səmərəli və inteqrasiyalı idarə olunmasını zəruri edir.

AMEA-nın Yer və Biologiya və Tibb Elmləri bölmələri tərəfindən hazırlanmış Dövlət Proqramının həyata keçirilməsinin respublikamızda ilk dəfə olaraq su mənbələrinin hər bir qrupuna aid olan su obyektlərinin əsas kəmiyyət, keyfiyyət göstəriciləri və ekoloji şəraitinin qiymətləndirilərək müxtəlif mənşəli su ehtiyatları haqqında müasir tələblərə cavab verən kompleks məlumat bazasının yaranmasına imkan verəcəyi qeyd edilib. Bundan əlavə, su anbarlarının yaradılması və istismarının bütün mümkün nəticələrinin öyrənilməsinin, əhali və ərazilərin təhlükəsizliyinin təmin edilməsi baxımından vacib məsələlərdən olduğu bildirilib.

Sonra Rəyasət Heyətinin qərarı ilə Dövlət Proqramının layihəsi qəbul edilib və təsdiq olunması üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qarşısında vəsatət qaldırılması qərara alınıb.

Tədbirin gündəliyinə çıxarılan növbəti məsələlər AMEA-nın Mərkəzi Elmi Kitabxanasında (MEK) aparılan yoxlamanın nəticələri və MEK-in direktoru Sevil Zülfüqarovanın kütləvi informasiya vasitələrində yayımlanmış plagiat məqalələri haqqında olub. Mövzular ətrafında müvafiq arayışlar səsləndirilib. Mərkəzi Elmi Kitabxananın idarə edilməsində və fəaliyyətində yol verdiyi nöqsanlara görə Rəyasət Heyətinin qərarı ilə Sevil Zülfüqarova MEK-in direktoru vəzifəsindən azad olunub.

AMEA Rəyasət Heyətinin digər qərarı ilə fəlsəfə elmləri doktoru, professor Məmməd Əliyev Mərkəzi Elmi Kitabxananın yeni direktoru təyin edilib.

İclasda, həmçinin akademik Ağadadaş Əliyevin 80 illik yubileyi, eləcə də AMEA-nın akad. M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya, eləcə də Polimer Materialları institutlarının strukturlarında qismən dəyişiklik edilməsi haqqında müvafiq qərarlar qəbul olunub.

İclasda müzakirə edilən məsələlər ətrafında akademik Dilqəm Tağıyev, akademik Rasim Əliquliyev, akademik İradə Hüseynova, AMEA-nın müxbir üzvü Əminağa Sadıqov, akademik Gövhər Baxşəliyeva, AMEA-nın müxbir üzvü Bəxtiyar Məmmədov, professor Elton Məmmədov, hüquq elmləri doktoru Habil Qurbanov, hüquq üzrə fəlsəfə doktoru Rasim Ağasiyev və digərləri müvafiq təkliflərlə çıxış ediblər.

Sonda AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev çıxış edərək bildirib ki, bu gün Azərbaycan elminin prioritet inkişaf istiqamətləri üzrə tədqiqatlar daha da genişləndirilməli və bu yöndə Rəyasət Heyəti tərəfindən alimlərə zəruri dəstək verilməlidir. Elmin bəşəriyyətin gələcəyini müəyyənləşdirən başlıca faktorlardan olduğunu vurğulayan Akademiya rəhbəri AMEA-nın elmi müəssisə və təşkilatlarının fəaliyyətini dövrün tələblərinə uyğun, müasir texnologiyalardan istifadə etməklə qurmasının əhəmiyyətini bildirərək müvafiq tapşırıqlarını verib.

# AMEA Rəyasət Heyətinin bəyanatı

**Məlum olduğu kimi, AMEA Rəyasət Heyətinin 20 noyabr 2020-ci il tarixində keçirilmiş növbəti iclasının yekdilliklə qəbul edilmiş qərarına əsasən ilk növbədə işində yol verdiyi ciddi nöqsanlara, həmçinin cəmiyyətdə tanınan şəxslərin məqalələrini mənimsəyərək öz imzası ilə təqdim etdiyi də nəzərə alınmaqla AMEA Mərkəzi Elmi Kitabxananın (MEK) direktoru tutduğu vəzifəsindən azad edilmişdir.**

Lakin törətdiyi əməllərdən peşman olmaq, MEK kollektivindən, ona vaxtilə etimad göstərmiş AMEA Rəyasət Heyətinin üzvlərindən, həmçinin yazılarını mənimsədiyi şəxslərdən üzr istəmək əvəzinə Sevil Zülfüqarova "Facebook" sosial şəbəkəsi vasitəsilə ölkə başçısı cənab İlham Əliyevə müraciət edərək, özünün guya haqsız yerə işdən kənarlaşdırıldığına dair yalan məlumatlar yayaraq ictimaiyyəti aldatmağa çalışmışdır. Çox təəssüf ki, bəzi KİV-lər sensasiya yaratmaq və özlərinin xəbər lentini doldurmaq məqsədilə heç bir yoxlama və dəqiqləşdirmə aparmadan Sevil Zülfüqarovanın əsassız fikirlərini tirajlamış, ictimai fikirdə çaşqınlıq yaranmasına səbəb olmuşlar. Bu səbəbdən də Sevil Zülfüqarovanın MEK-in direktoru vəzifəsindən azad edilməsinə dair Rəyasət Heyətinin göstərilən qərarının səbəbləri haqqında cəmiyyətə ətraflı məlumat verilməsi zərurəti yaranmışdır.

Ölkə ictimaiyyətinin diqqətinə çatdırırıq ki, Sevil Zülfüqarova 2020-ci il mart ayının 5-də AMEA Rəyasət Heyətinin qərarı ilə Akademiyanın Mərkəzi Elmi Kitabxanasının direktoru vəzifəsinə təyin olunmuş, AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev tərəfindən ona qurumun inzibati idarəçiliyində, maliyyə-təsərrüfat sistemində və kitab fondlarında əvvəlki dövrlərdən qalan qüsurları aradan qaldırmaq, iş mühitini sağlamlaşdırmaq, kitabxana işini müasir dövrün tələblərinə uyğun yenidən qurmaq vəzifələri tapşırılmışdır. Lakin çox təəssüf ki, Sevil Zülfüqarova AMEA prezidentinin tapşırıqlarını, həmçinin Rəyasət Heyəti üzvlərinin tövsiyələrini qulaqardına vurmuş və direktor vəzifəsinin icrasına başladıqdan qısa müddət sonra sələflərinin vaxtilə yol verdiyi xətaları təkrarlamaq yolunu tutmuşdur. Belə ki, kitabxana personalına qarşı kobud rəftar və əsassız təzyiqlər, mükafatların yazılması zamanı ayrıseçkilik hallarına yol verilməsi səbəbindən əməkdaşların bir qismi şikayətçi olmuş, az sonra onlara məhəl verilmədiyini görərək bu qurumdakı əmək fəaliyyətlərinə xitam vermişlər. Xatırladaq ki, Sevil Zülfüqarovanın MEK-ə rəhbərlik etdiyi 2020-ci ilin mart-noyabr ayları ərzində qurumun ümumilikdə 28 əməkdaşı işdən kənarlaşdırılmışdır. Onların böyük əksəriyyətinin əmək müqaviləsinin bitməsini əsas gətirən S.Zülfüqarova heç bir ciddi səbəb gətirmədən pandemiya dövründə müqavilələri uzatmaqdan imtina etmişdir. Dövlət başçısının pandemiya dövründə vətəndaşların əsassız şəkildə işdən çıxarılmasının yolverilməzliyi haqqındakı tövsiyə və tapşırıqlarını nəzərə almayan Sevil Zülfüqarova şəxsi kaprizləri səbəbindən bir sıra əməkdaşların fəaliyyətinə xitam vermişdir.

Əsassız şəkildə işdən kənarlaşdırılan əməkdaşların bir qismi AMEA rəhbərliyinin ünvanına Sevil Zülfüqarovanın dözülməz davranışına dair xeyli sayda şikayət məktubları, müraciətlər ünvanlamışlar. Qeyd edək ki, Sevil Zülfüqarovanın özbaşınalıqlarına dair eyni məzmunlu məktublar Prezident Administrasiyasına və digər dövlət qurumlarına da ünvanlanıb. AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevin tapşırığı ilə kitabxana əməkdaşlarının müraciətlərinə baxılmış, şikayətçilərin hüquqlarının qorunması istiqamətində qərarlar qəbul edilmişdir. Nəticədə Sevil Zülfüqarovanın əsassız şəkildə işdən kənarlaşdırmağa çalışdığı əməkdaşlar iş yerlərində saxlanılmış, mükafatları kəsilən əməkdaşların ödənişlərinin verilməsi təmin olunmuşdur. Həmçinin Sevil Zülfüqarovaya öz fəaliyyətində dönüş yaratması, iş şəraitini sağlamlaşdırması üçün AMEA rəhbərliyi tərəfindən şifahi xəbərdarlıq edilmişdir.

*(davamı 3-cü səhifədə)*

# *Akademik Ramiz Mehdiyev:* "Akademiya ciddi addımlar atmalı, erməni saxtakarlıqları ilə dolu "faktların" qarşısının alınması istiqamətində tədqiqatları gücləndirməlidir"

**"Azərbaycan xalqı onu yaxşı bilir və bütün dünya bilməlidir ki, Kəlbəcərdə mövcud olan kilsələr qədim Qafqaz Albaniyası dövlətinə məxsusdur. Bunu təsdiqləyən bir çox tarixi sənədlər var. Bu, heç kəsə sirr deyil. Sadəcə olaraq, erməni "tarixçiləri" və saxtakarlar qədim alban kilsələrini saxtakarlıqla erməniləşdiriblər, öz yazılarını oraya əlavə ediblər və bu kilsələri özününküləşdiriblər. Tarixə baxmaq kifayətdir, hər kəs görsün ki, 1830-cu illərdə çar Rusiyası alban kilsəsini ləğv etdi, alban kilsəsinin bütün mülkiyyətini erməni Qriqoryan kilsəsinə verdi və erməni keşişləri, onların havadarları bu kilsələri mənimsəməyə başladılar".**

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*









**Noyabrın 25-də Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin nəzdində Albanşünaslıq Elmi Mərkəzinin yaradılması ilə bağlı iclas keçirilib.**

Tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev Azərbaycan tarixinin, onun dövlətçiliyinin təşəkkülünün bir hissəsi olan Qafqaz Albaniyasının araşdırılmasının daha mütəşəkkil təşkilinə, sovet dövründən daim manеələrlə qarşılaşan alban kilsələrinin tədqiqinə hər zaman ciddi ehtiyac olduğunu vurğulayaraq ölkə başçısı cənab İlham Əliyevin "Azərbaycanda Qafqaz Albaniyasilə bağlı kifayət qədər böyük elmi baza var, əsərlər var. Bu əsərlər nəinki elm ictimaiyyətinə, bütövlükdə dünya ictimaiyyətinə çatdırılır və çatdırılmalıdır" - çağırışına cavab olaraq tədqiqatçıların maddi-mədəniyyət nümunələrimizin ölkəmizə məxsusluğunun sübut edilməsi və tarixi həqiqətlərimizin daha geniş ictimaiyyətə çatdırılması istiqamətində araşdırmaların genişləndirilməsinin və bu məqsədlə Albanşünaslıq Elmi Mərkəzinin yaradılmasının vacibliyini diqqətə çatdırıb. Akademik Ramiz Mehdiyev tariximizə aid dəqiq faktların üzə çıxarılması, maddi mədəniyyətimizin iddiasında olan ermənilərin sahiblənmək istədikləri alban abidələrinin Azərbaycan tarixinə məxsusluğunu sübut edəcək tədqiqatların genişləndirilməsi ilə əlaqədar olaraq aparılan işlərin bir sistem şəklində həyata keçirilməsinin önəmini ifadə edib. Akademik Ramiz Mehdiyev çıxışında "kommersant.ru" saytında dərc olunan "Ziyarətgah bütün hallarda qorunmalıdır" adlı rusiyalı sülhməramlıların bölük komandirinin müsahibəsinə toxunaraq qeyd edib ki, həmin yazıda Xudavəng monastrı erməni Dadivank monastrı kimi təqdim olunub. Bundan başqa, akademik "Artsaxın" mənəvi və mədəni irsinin tədqiq edilməsi üçün erməni katolikosunun sərəncamı ilə Üçmüədzində dəftərxananın fəaliyyətə başlaması, Qaragin Ambarsumyanın həmin dəftərxanaya rəhbər təyin edilməsi ilə bağlı əmri tədbir iştikarçılarının diqqətinə çatdırıb. AMEA rəhbəri vurğulayıb ki, bu kimi faktlarla mübarizə aparmaq üçün ölkənin əsas elm mərkəzi olan Akademiya ciddi addımlar atmalı, erməni saxtakarlıqları ilə dolu "faktların" qarşısının alınması istiqamətində tədqiqatları gücləndirməlidir.

Tədbirdə AMEA-nın müxbir üzvü, Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun əməkdaşı, Albaniyada feodal münasibətlərinin genezisi probleminin ilk tədqiqatçısı, professor Fəridə Məmmədova çıxış edərək yeni yaradılacaq mərkəzlə bağlı fikirlərini bölüşüb, qədim fars, gürcü və latın dillərini bilən kadrlara və tarixin Qafqaz Albaniyası dönəminin araşdırılmasında bu dillərə ciddi ehtiyac olduğunu bildirib.

Sonra çıxış edən AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Təvəkkül Əliyev arxeologiya elminin bu araşdırmalardakı rolundan bəhs edib. Albaniyanın yaşayış yerlərinin tam olaraq öyrənilmədiyini deyən T.Əliyev Azərbaycanın işğaldan azad olunan bölgələrində kifayət qədər tədqiqatların aparılmadığını qeyd edib, Gəncəsar və Xudafərin abidələri kimi tanıdılmağa ehtiyacı olan digər maddi mədəniyyət nümunələrimizdən də danışıb: "Kəlbəcər, Laçın və Qubadlı ilə bağlı yetəri tədqiqat yoxdur. Gəncəsar və Xudafərini tanıyırıq, amma digər tanımadığımız abidələr var ki, onların araşdırılması mütləqdir".

Tədbirdə yeni mərkəzlə bağlı öz təkliflərini səsləndirən AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Qoşqar Qoşqarlı alban abidələrinin siyasi, iqtisadi, sosial, dini-konfessial, o cümlədən arxeoloji, memorioloji və mədəni baxımdan da tədqiqinin vacibliyindən danışıb.

Sonra AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Ülviyyə Hacıyeva çıxış edərək mərkəzin həyata keçirəcəyi tədbirləri geniş ictimaiyyətə çatdırmaq məqsədilə xəbərlər, monoqrafiyalar və arxeoloji-etnoqrafik hesabatlar adlı nəşrlər, digər ölkə alimləri ilə birgə təşkil olunacaq ekspedisiyalar, arxivlərlə iş və kadr hazırlığı kimi istiqamətlərdən ibarət olacağını tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Daha sonra Azərbaycan Respublikasının Alban-Udi Xristian Dini icmasının sədri Robert Mobili Qafqaz Albaniyasında alban kilsələrinin mövcudluğunu sübut edən elmi əsaslı faktların genişləndirilməsi məqsədilə Alban Apostol kilsəsinin yaradılması və əsasnaməsinin hazırlanmasının mühüm olduğunu vurğulayıb. Dünyada müstəqil olan mədəni xristian irsini müdafiə edən kilsələrin Azərbaycanda da mövcudluğunun önəmindən bəhs edən Robert Mobili qeyd edib ki, bu kilsənin yaradılması dini icmalarla əlaqələrin qurulması və ölkədə olan alban kilsələrinə aid faktların dünyaya çatdırılması baxımından əhəmiyyətlidir: "Məsələn, Türkiyədə Konstantinopol kilsəsinin rəhbəri o ərazinin və mədəni irsin sahibidir. Onun müdaxiləsi sayəsində oraya nə suriyalılar, nə ermənilər, nə gürcülər, nə də yunanlar gedə bilirlər".

# AMEA Rəyasət Heyətinin bəyanatı

*(əvvəli 2-ci səhifədə)*

Ancaq Sevil Zülfüqarova nəinki baş verənlərdən nəticə çıxarmamış, əksinə, rəhbərlik etdiyi qurumun statusunu və nüfuzunu nəzərə almadan, qanunvericiliyin tələblərini kobud şəkildə pozaraq yaxın qohumları - qayınanası 66 yaşlı Zemfira Zamanovanı, qızı ikinci kurs tələbəsi Könül Hüseynovanı, bacısı qızları, müvafiq olaraq ikinci və üçüncü kurs tələbələri Duyğu Məmmədovanı və Həmidə Məmmədovanı, bacısının əri Sabir Məmmədovu, yaxın rəfiqəsi Hicran Məmmədlini işə götürmüşdür. Bu qərarları verərkən çox güman ki, Sevil Zülfüqarova rəhbərlik etdiyi qurumun ailə şirkəti deyil, dövlət büdcəsindən maliyyələşən təşkilat olduğunu unutmuş, öz sələfinin xoşagəlməz addımlarını daha ciddi miqyasda təkrarlamışdır.

19 sentyabr 2020-ci il tarixində Sevil Zülfüqarova AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevə məktub ünvanlayaraq öz sələfləri dövründə, daha dəqiq desək, 2014-2019-cu illər ərzində Mərkəzi Elmi Kitabxanadan 70 tondan çox kitabın qanunsuz olaraq yoxa çıxdığına, 5 milyon nüsxə olan kitab fondunun 1,5 milyona qədər azaldığına, xeyli sayda kompüterlərin oğurlandığına dair məlumat təqdim edərək, araşdırma aparılmasını xahiş etmişdir. Dərhal AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevin tapşırığı əsasında AMEA Rəyasət Heyətinin peşəkar və təcrübəli əməkdaşlarından ibarət komissiya formalaşdırılmış və komissiya üzvlərinə kitabxananın 2014-2020-ci illər ərzindəki maliyyə-təsərrüfat fəaliyyətinin, sənədləşmə və kadr işinin, həmçinin kitabxana fondlarının vəziyyətinin əsaslı şəkildə yoxlanılmasına dair tapşırıq verilmişdir. Qeyd etməliyik ki, Sevil Zülfüqarova komissiyanın onun fəaliyyət dövrünü də yoxlamasına etiraz etmiş, onun üzvlərinin fəaliyyətinə ciddi şəkildə əngəllər törətməyə cəhd göstərmişdir. Nəticədə komissiya üzvləri ilə Sevil Zülfüqarova arasında mübahisə yaranmış və sonuncu AMEA Rəyasət Heyətinin əməkdaşlarını təhqir edərək, onlardan MEK-in binasını tərk etmələrini tələb etmişdir. Təhqir edilmiş komissiya üzvləri Sevil Zülfüqarovanın onları təhqir etmələrinə dair tərtib etdikləri aktı imzalayaraq Akademiya rəhbərliyinə təqdim etmişlər.

Sevil Zülfüqarovanın komissiyanın fəaliyyətinə kobud əngəllər yaratması, onun rəhbərlik etdiyi dövrə dair yoxlamanın aparılmasına etiraz etməsi haqlı narazılığa və şübhələrə səbəb olduğundan məsələ AMEA Rəyasət Heyətinin 5 oktyabr 2020-ci il tarixli növbəti iclasında müzakirəyə çıxarılmışdır. Qəbul edilən qərara əsasən S.Zülfüqarovadan komissiyanın fəaliyyətinə normal şərait yaratması, özünün fəaliyyət dövrünə dair sənədləri komissiya üzvlərinə təqdim etməsi tələb olunmuşdur. Həmçinin komissiyanın bitərəfliyinin təmin edilməsi üçün M.F.Axundov adına Milli Kitabxananın iki peşəkar və təcrübəli kitabxanaçısı da AMEA Rəyasət Heyəti üzvlərinin xahişi ilə yoxlama prosesinə cəlb olunmuşdur.

Bir ay müddətində davam edən yoxlamanın nəticələrinə dair komissiya üzvləri tərəfindən 25 səhifəlik arayış hazırlanaraq AMEA Rəyasət Heyətinə təqdim olunmuşdur. Rəyasət Heyətinin 20 noyabr 2020-ci il tarixli iclasında yoxlamanın nəticələri geniş müzakirə edilmiş və həqiqətən də 2014-2020-ci illər ərzində Mərkəzi Elmi Kitabxananın fəaliyyətində ciddi nöqsanların olması faktları aşkara çıxarılmışdır. Həmin nöqsanlar arasında bəzi nadir kitabların itməsi, baxımsızlıq və əvvəlki rəhbərliyin etinasızlığı səbəbindən müəyyən sayda kitabın yararsız vəziyyətə salınması, həmçinin kitabxana fonduna daxil olan çoxlu sayda jurnalların, qəzetlərin, avtoreferatların, dissertasiyaların və başqa zəruri nüsxələrin uçotunun aparılmaması, bu günə qədər qeydiyyat işinin yarıtmaz olması, maliyyə-təsərrüfat sahəsində yaranmış pərakəndəlik, kadr və sənədləşmə işində qanun pozuntularına yol verilməsi kimi hallar xüsusilə qeyd olunmalıdır. Bildirmək istəyirik ki, yoxlamanın nəticələrinə əsasən Sevil Zülfüqarovanın guya kitabxanadan 70 ton həcmində 4 milyona yaxın kitabın yoxa çıxdığına dair səsləndirdiyi iddialar öz təsdiqini tapmamış, itmiş kitabların sayının MEK-in direktoru tərəfindən fantastik həcmdə məqsədli şəkildə şişirdildiyi üzə çıxarılmışdır. Belə ki, Komissiya müəyyən etmişdir ki, bütövlükdə Mərkəzi Elmi Kitabxanada və AMEA-nın 40-dan çox elmi-tədqiqat institutunun kitabxanalarında olan ümumi fondun cəmisi 4 milyona çatmır. Belə olduğu halda guya kitabxanada 4 milyon kitabın yoxa çıxması haqqındakı fikirlər absurd iddiadan başqa bir şey deyildir. Yoxlama ilə, həmçinin MEK-də müasir elektron kitabxananın yaradılması istiqamətində 2014-2019-cu illər ərzində hər hansı əhəmiyyətli işin görülmədiyi aşkar edilmiş, bu istiqamətdə ayrılan vəsaitlərin səmərəsiz olaraq xərcləndiyi aydınlaşdırılmış, həmin sahədə hüquq-mühafizə orqanlarının apardıqları iş barədə məlumat nəzərə çatdırılmışdır.

İctimaiyyətin diqqətinə çatdırırıq ki, yoxlama komissiyası tərəfindən Sevil Zülfüqarovanın MEK-ə rəhbərlik etdiyi 8 ay ərzində əvvəlki dövrlərdə kadr, sənədləşmə və maliyyə-təsərrüfat sahələrindəki qüsurların nəinki aradan qaldırılmadığı, əksinə, daha da artdığı inkaredilməz faktlarla sübuta yetirilmişdir. Həmin faktların hamısı komissiyanın arayışında öz əksini tapmış və Sevil Zülfüqarova komissiyanın iradlarına aydınlıq gətirə biləcək hər hansı izahat təqdim edə bilməmişdir.

Deyilənlər nəzərə alınaraq, AMEA Rəyasət Heyəti Sevil Zülfüqarovanın öz işində yol verdiyi ciddi nöqsanları, həmçinin cəmiyyətdə tanınan şəxslərin yazılarını öz adına çıxaraq mənimsəməsi faktlarını əsas tutaraq, onun işdən azad olunmasına dair qərar vermişdir. Sevil Zülfüqarovanın yol verdiyi intellektual plagiata dair ətraflı məlumat 23 noyabr 2020-ci il tarixində AMEA-nın rəsmi saytında dərc edilmişdir. Maraqlıdır ki, S.Zülfüqarova öz adına çıxdığı yazıları 20 gündən artıq bir müddətdə MEK-in veb-səhifəsində yerləşdirmiş, həmçinin "Elm" qəzetinə müraciət edərək onların nəşr edilməsini də istəmişdir. Yalnız plagiat hadisəsi üzə çıxdıqdan və buna dair ölkənin bir sıra informasiya agentlikləri və qəzetləri məlumatlar yaydıqdan sonra Sevil Zülfüqarova yazıların MEK saytından çıxarılmasına tapşırıq vermişdir. Vəziyyətdən çıxış yolu kimi o, başqalarına böhtan atmaq yolunu tutmuş, guya bu yazıların məqsədli şəkildə sabiq MEK direktoru Leyla İmanovanın qohumları tərəfindən sayta yerləşdirildiyinə dair gülünc iddialar səsləndirmişdir.

Sevil Zülfüqarovanın özünə gəlincə isə, Rəyasət Heyətinin üzvləri onu bir daha öz törətdiyi əməllərinə, etdiyi təhqirlərə və böhtanlara görə hər kəsdən üzr istəməyə çağırır. Öz nöqsanlarını görmək, onları etiraf etmək və üzr istəməyi bacarmaq şəxsin böyüklüyünü və mənəvi yetkinliyini göstərir. Sevil Zülfüqarova bütün bunları dərk etməli, öz günahlarını başqalarının boynuna atmaq, ictimaiyyəti yalan məlumatlarla çaşdırmaq yolundan əl çəkməlidir. Səhvlərdən nəticə çıxarmadan, islah olmadan cəmiyyətdə alnıaçıq yaşamaq, inkişaf etmək mümkün deyildir.

Yekunda biz mətbuat nümayəndələrini də obyektiv olmağa, yoxlanılmamış və əsassız məlumatları yaymamağa və ictimaiyyəti çaşdırmamağa çağırırıq. Bildiririk ki, bundan sonra AMEA-da şəffaflığın və sağlam iş mühitinin təmin edilməsi istiqamətində fəaliyyət davam etdiriləcək. Dövlət başçısı cənab İlham Əliyevin bütün sahələrdə başladığı genişmiqyaslı islahatlar xətti AMEA-da da ciddi şəkildə həyata keçiriləcəkdir. Hər kəs bilməlidir ki, qüsurlarla mübarizədə hər hansı güzəştdən və istisnadan söhbət gedə bilməz.

# Alimlərimiz Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayırlar

**Müharibə dövründə və ondan sonrakı müddətdə Azərbaycan həqiqətlərindən və ermənilərin torpaqlarımızda törətdikləri vəhşiliklərdən bəhs edən AMEA alimlərinin məqalələrinin çapı bəzi Avropa ölkələrində ermənipərəst qüvvələrin və ermənilərin özlərinin iştirakı ilə xeyli dərəcədə məhdudlaşdırılıb.**



Bunu AMEA-nın birinci vitse-prezidenti, akademik İsa Həbibbəyli Vətən müharibəsi zamanı və hazırkı dövrdə ölkənin alimlərinin, akademiklərinin informasiya savaşında necə fəaliyyət göstərməsi haqda danışarkən deyib. O bildirib ki, bununla bağlı çətinliklərə baxmayaraq, alimlərimiz həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayırlar:

”AMEA Qarabağ savaşının gedişində və ondan sonrakı dövrdə informasiya müharibəsində fəal iştirak edir. Akademiyanın prezidenti Ramiz Mehdiyev 73 ölkənin Elmlər Akademiyasının prezidentinə və universitet rektoruna mövcud vəziyyət və ermənilərin terrorçuluq fəaliyyəti barədə müraciət ünvanlayıb. Eyni zamanda akademiya adından Fransa Prezidenti Emmanuel Makrona tənqid dolu açıq məktub göndərilib. Bundan başqa, akademiyanın əməkdaşları ölkə mediasında və sosial şəbəkədə vaxtaşırı olaraq bu istiqamətdə çıxışlar edib. Bu çıxışlarda həm müharibənin gedişi prosesinə, həm də Ali Baş Komandanın apardığı döyüş əməliyyatlarına ziyalıların dəstəyi ifadə olunub. Eyni zamanda Qarabağın tarixi, ermənilərin buradakı mədəniyyət abidələrimizə vurduğu ziyanlar, toponimlərin erməniləşdirilməsi üçün onların törətdikləri bir çox vandalizm hərəkətləri, təbii sərvətlərdən qanunsuz istifadə və törədilən dağıntılarla bağlı çoxsaylı çıxışlar olub. Bu məqalələr ölkəmizlə yanaşı, xarici ölkələrdə də dərc olunub. Çox təəssüf ki, Almaniya, Niderland və digər Avropa ölkələrinə göndərilən məqalələrin çapı ermənipərəst qüvvələrin və ermənilərin özünün iştirakı ilə xeyli dərəcədə məhdudlaşdırılıb. Lakin buna baxmayaraq, alimlərimiz Bolqarıstan və Polşada həmkarları vasitəsi ilə Azərbaycan həqiqətləri barədə məqalələr çap etməyə nail oldular. Azərbaycan alimlərinin Çin saytlarında da bu barədə yazıları yer alıb. Həmçinin Şərq ölkələrində, ərəbdilli mətbuatda AMEA-nın bir çox əməkdaşının ərəb dilində bu mövzuda məqalələri çap olunub”.

İ.Həbibbəyli bildirib ki, bu istiqamətdə müharibədən sonrakı dövrdə də işlər görülür:

”Rəyasət Heyətində Qarabağ Elmi Bölməsinin yaradılması haqqında qərar qəbul edilib. Bu barədə ölkə rəhbərliyi qarşısında məsələ qaldırılması nəzərdə tutulur. Bundan başqa, AMEA-da Post-konfilikt Ərazilərin Bərpası Elmi Mərkəzi yaradılıb. Mərkəz müharibədən sonra bərpası aparılacaq ərazilərlə bağlı dövlət proqramına elmin, alimlərin dəstəyini təmin etmək məqsədi daşıyır. Eyni zamanda ermənilərin torpaqlarımızda törətdiyi təxribatların, abidələrimizə qarşı törətdikləri vəhşiliklərin elmi cəhətdən qiymətləndirilməsi və təyin edilməsi ilə bağlı onlayn konfransın keçirilməsi üçün hazırlıqlar da görülür”.

## *Akademik Rasim Əliquliyev:*
## GEANT-ın yeni layihəsində daha "ağıllı" şəbəkə servisləri tətbiq olunacaq

**Güman edirəm ki, yeni layihədə IV sənaye inqilabının çağırışları və süni intellekt texnologiyalarının təsiri ilə daha ”ağıllı” şəbəkə servisləri tətbiq olunacaq.**




AZƏRTAC xəbər verir ki, bunu İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev ”GEANT Connect” jurnalında dərc olunan məqalədə Şərq Tərəfdaşlığı ölkələrinin 2-ci ”EapConnect” layihəsinə münasibət bildirərkən deyib.

Bildirilib ki, Avropa İttifaqının ”EU4Digital” təşəbbüsü çərçivəsində maliyyələşdirilən layihənin əsas məqsədi ”EaPConnect” tərəfdaşlarının uzunmüddətli davamlılığına nail olmaq və onun dəyərini nümayiş etdirməkdir. Elmi mübadiləni asanlaşdırmaq üçün şəbəkə infrastrukturunu genişləndirmək, yeni xidmətlər təklif etmək, Şərq Tərəfdaşlığı ölkələrinin milli tədqiqat və təhsil şəbəkələrinin həmin ölkələrdəki milli tədqiqat və təhsil ekosistemlərində mövqeyini gücləndirmək də layihənin hədəfləri sırasındadır.

”EapConnect” layihəsi Şərq Tərəfdaşlığı ölkələrini (Azərbaycan, Belarus, Gürcüstan, Moldova, Ukrayna və s.) əhatə edən elektron elm infrastrukturunun yaradılması və bu ölkələrdə fəaliyyət göstərən tədqiqat və təhsil müəssisələrində milyonlarla alim, müəllim heyəti və tələbənin yüksəksürətli, genişzolaqlı internet şəbəkəsinə asanlıqla çıxışının təmin edilməsini nəzərdə tutur. Tərəfdaşlar layihənin məqsədlərini reallaşdırmaq və Şərq Tərəfdaşlığı regionunda təhsil və tədqiqat şəbəkələrinin davamlılığını təmin etmək üçün konfranslar, seminarlar, treninqlər və digər əməkdaşlıq fəaliyyətləri vasitəsilə birgə çalışacaqlar.

## Mərkəzi Elmi Kitabxananın yeni direktoru kollektivə təqdim edilib

**Noyabrın 23-də AMEA-nın Mərkəzi Elmi Kitabxanasının (MEK) yeni direktoru, fəlsəfə elmləri doktoru, professor Məmməd Əliyev kollektivə təqdim olunub.**



Tədbiri AMEA-nın akademik-katibi, müxbir üzv Əminağa Sadıqov açaraq bildirib ki, MEK 95 ildən artıq fəaliyyəti dövründə ölkəmizin ən iri kitabxana-informasiya müəssisələrindən birinə çevrilərək Azərbaycan elminin inkişafında, elmi kadrların yetişdirilməsində əvəzsiz rol oynayıb. Qeyd edib ki, ötən illər ərzində əsaslı inkişaf yolu keçən Mərkəzi Elmi Kitabxanaya ölkə rəhbərliyi tərəfindən daim diqqət göstərilib, yeni inzibati binası tikilərək istifadəyə verilib və nəticədə burada beynəlxalq standartlara uyğun səmərəli fəaliyyət üçün hər cür şərait yaradılıb.

Daha sonra çıxış edən MEK-in yeni direktoru, professor Məmməd Əliyev kollektivi salamlayıb, AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevə təyinatı ilə bağlı minnətdarlığını bildirib. Diqqətə çatdırıb ki, müasir avadanlıqlarla təchiz olunan Mərkəzi Elmi Kitabxana milli və dünya əhəmiyyətli elmi nəşrlərin zəngin fondlarına malikdir. O, hədəflərə çatmaq və nümunəvi kitabxana xidməti formalaşdırmaq məqsədilə MEK-in strukturunda islahatların aparılmasının, elmi şuraların və elmi-tədqiqat labaratoriyalarının yaradılmasının vacibliyini söyləyib.

M.Əliyev, həmçinin 44 gün davam edən İkinci Qarabağ müharibəsində Azərbaycanın tarixinə qızıl hərflərlə yazılan böyük qələbə münasibətilə kollektivi təbrik edib. O, kitabxana əməkdaşlarının Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin məqsədyönlü, müdrik diplomatik siyasəti ətrafında bundan sonra da sıx birləşəcəklərini diqqətə çatdırıb.

Tədbirin sonunda kollektiv adından çıxış edən MEK-in kitabxana xidmət üzrə direktor müavini Xuraman İsmayılova yeni təyin olunan direktora işində uğurlar arzulayıb, illərlə formalaşan tarixi ənənəyə malik kitabxanada bundan sonra da uğurlu iş fəaliyyətinin davam edəcəyinə əminliyini bildirib.

Qeyd edək ki, professor Məmməd Əliyev AMEA Rəyasət Heyətinin noyabrın 20-də keçirilən iclasında MEK-in yeni direktoru təyin olunub.

## Azıx mağarasına aid arxeoloji tapıntılar Bakıya gətirilib

**AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix elmləri doktoru, professor Nəcəf Müseyibli Azərbaycan ictimaiyyəti üçün mühüm və dövlət əhəmiyyətli məlumat açıqlayıb.**



Nəcəf Müseyibli bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ordumuz tərəfindən torpaqlarımızla birlikdə qədim abidələrimiz də işğaldan azad olunub. Otuz ilə yaxın bir müddətdə Ermənistan işğal altındakı ərazilərimizdəki tarixi abidələrdə beynəlxalq konvensiyalara zidd olaraq qanunsuz arxeoloji tədqiqatlar aparıb və bu işə bəzi Avropa alimlərini də cəlb edib. Bununla əlaqədar olaraq artıq Azərbaycan Respublikası Prokurorluğunda cinayət işi açılıb və müvafiq tədbirlər həyata keçirilir.

Professor Nəcəf Müseyiblinin sözlərinə görə, bir neçə gün əvvəl Azərbaycan hərbçiləri Xocavənd rayonunun işğaldan azad edilmiş Azıx kəndindəki evlərdən birinə baxış zamanı üzərində ”Azıx” yazılmış və içərisində arxeoloji materialların olduğu qutular aşkar etmələri barədə Arxeologiya və Etnoqrafiya İnstitutuna məlumat veriblər. Bununla əlaqədar olaraq müəssisə tərəfindən Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti və AMEA-nın rəhbərliyi məlumatlandırılıb.

Məlumat mühüm əhəmiyyət kəsb etdiyi üçün təcili olaraq Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin nümayəndəsi ilə birgə institutun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Azad Zeynalov həmin rayona ezam olunub. Yerində baxış zamanı müəyyən edilib ki, bu qutularda işğal müddətində dünya əhəmiyyətli abidə, paleolit dövrünə aid ibtidai insan düşərgəsi olan Azıx mağarasında Ermənistan və digər ölkələrin alimlərinin apardıqları qanunsuz arxeoloji qazıntılar nəticəsində aşkar edilən tapıntılar qablaşdırılıb. Bunların əksəriyyəti qədim fauna qalıqlarıdır. 90-a yaxın plastik qutulardakı bu tapıntılar dünən axşam Bakıya gətirilərək institutun Arxeoloji Fondunda yerləşdirilib.

Maraqlıdır ki, qutuların birində işğalçıların qanunsuz ekspedisiyasının bəzi çöl-tədqiqat sənədləri aşkar olunub. Görünür, işğalçılar bu tapıntıları özləri ilə birgə Azərbaycan Respublikasından çıxarmağa imkan tapmayıblar. Amma qanunsuz qazıntıların bütün tapıntılarının hamısının burada olub-olmadığı da məlum deyil.

Professor Nəcəf Müseyiblinin bildirdiyinə görə, bütün bu tapıntılar Arxeologiya və Etnoqrafiya İnstitutunda araşdırılacaq, təhlil ediləcək, bu barədə Azərbaycan Respublikası Prokurorluğuna və geniş ictimaiyyətə ətraflı məlumat veriləcək. Alimlərimiz bu işdə əməyi olan hərbçilərimizə və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinə dərin təşəkkürlərini bildirirlər.

## "Elm" nəşriyyatında "Şuşa Azərbaycanın musiqi qalasıdır" kitabı çapa hazırlanır

**Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Şuşanın azad olunmasını hər birimiz şanlı və tarixi günlər kimi qeyd edirik. Bu əlamətdar hadisə insanlarımızda xoş ovqat, böyük ruh yüksəkliyi və yaradıcılıq şövqü yaradıb.**




AMEA-nın ”Elm” nəşriyyatı da bu şanlı qələbə münasibətilə mədəniyyət beşiyi olan Qarabağ, Şuşa haqqında maraqlı və əhəmiyyətli, olduqca sanballı nəşrlər həyata keçirir. Bu istiqamətdə nəşriyyatda akademik Zemfira Səfərovanın Şuşanın 270 illiyinə həsr edilmiş ”Şuşa Azərbaycanın musiqi qalasıdır” adlı kitabı çapa hazırlanır. Kitabın birinci hissəsi XIX-XX əsrlərin görkəmli alimi, rəssamı və musiqişünası M.M.Nəvvab və onun musiqi haqqında önəmli risaləsi ”Vüzuhül-ərqam” (”Rəqəmlərin izahı”) haqqındadır.

Kitabın ikinci hissəsi ”Şərq musiqisinin peyğəmbəri” adlandırılan böyük ustad-xanəndə, şuşalı Cabbar Qaryağdıoğlunun həyatı və yaradıcılığına həsr edilib.

Əsərdə Qarabağ, Şuşa şəhərinin Azərbaycan musiqisinin beşiyi olması vurğulanır, hər iki ustadın Azərbaycan mədəniyyətinin inkişafında müstəsna rolu göstərilir. Bir çox musiqiçilərimizin, xanəndə və sazəndələrimizin, görkəmli bəstəkarlarımızın, şairlərin vətəni olan Qarabağın, Şuşanın mənəvi həyatının ümumi mənzərəsinin təfsiri kitabda verilir.

# Elmimizdə Mirzə Kazım bəy ənənələrinin görkəmli davamçısı

**Ümummüsəlman mədəniyyətinin yaradıcılarından olan Azərbaycan xalqının mütəfəkkir və alimləri əsrlər boyu bu mədəniyyətə öz qiymətli töhfələrini verərək onu zənginləşdiriblər. Bu zəka və ziya sahiblərinin yaratdığı əsərlər onların adlarını İslam mədəniyyəti tarixinə, eləcə də Azərbaycan xalqının tarixinə əbədi həkk edib. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü akademik Vasim Məmmədəliyev məhz belə alimlərdən idi.**



Akademik Vasim Məmmədəliyevin ilahi lütfdən qaynaqlanan istedadı, dərin elmi təfəkkürü, heyrətamiz hafizəsi, yorulmaz pedaqoji fəaliyyəti, əsl ziyalı şəxsiyyətə xas səciyyəvi xüsusiyyətləri təzahür etdirməsi onu fenomen şəxsiyyətlər sırasına daxil edib. Ziyalı adının məsuliyyətini çiyinlərində ləyaqətlə daşıyan, sahib olduğu mövqeyə uzun illərin gərgin zəhməti, inadkar fəaliyyəti ilə yetişən akademik Vasim Məmmədəliyev həm elmi ictimaiyyət və xalq arasında, həm də Vətənimizin hüdudlarından kənarda böyük şöhrət qazanıb.

Vasim Məmmədəliyev 1942-ci ildə Bakıda həkim ailəsində anadan olmuşdur. 1959-cu ildə Bakının 113 saylı orta məktəbini bitirib Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə daxil olub, 1964-cü ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirib. 1964-67-ci illərdə ADU-nun sami dilləri üzrə əyani aspiranturasına daxil olub, Tbilisiyə ezam edilərək aspiranturanı orada akademik G.V.Seretelinin rəhbərliyi altında bitirib. Alim 1968-ci ildə "Müasir ərəb, Azərbaycan dilərində və Bağdad dialektində felin zaman formalarının müqayisəli-tipoloji təhlili" mövzusunda namizədlik, 1974-cü ildə isə "Müasir ərəb ədəbi dilinin felin zaman, şəxs və şəkil kateqoriyaları" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1979-cu ildən BDU-nun Ərəb filologiyası kafedrasının professoru olub. 1981-1991-ci illərdə BDU-nun Şərqşünaslıq fakültəsinin dekanı, 1991-92-ci illərdə BDU-nun humanitar fakültələr üzrə prorektoru vəzifəsində çalışıb.

Vasim Məmmədəliyev 1991-ci ildən ömrünün sonuna qədər BDU-nun Ərəb filologiyası kafedrasının müdiri, eyni zamanda 1993-cü ildən İlahiyyat fakültəsinin dekanı olub. Azərbaycanın və Dağıstan Muxtar Respublikasının əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, İraq Elmlər Akademiyasının, Suriya Quran Elmləri və Ərəb filologiyası Akademiyasının və Misir Ərəb Dil Akademiyasının müxbir üzvü, İslam Əməkdaşlığı Təşkilatının Müsəlman Hüququ Akademiyasının akademiki və Azərbaycanın orada təmsilçisi, İranın Beynəlxalq Əhli-Beyt Assosiasiyası və Türkiyənin Elmi Araşdırmalar Vəqfinin üzvü idi. Elm və təhsildə səmərəli fəaliyyətinə görə "Şöhrət" və "Şərəf" ordenləri, "Yusif Məmmədəliyev" və İran İslam Respublikasının "Şəhriyar" qızıl medalı ilə təltif edilmiş, Prezident təqaüdünə və Heydər Əliyev Fondunun "Qızıl Çinar" beynəlxalq mükafatına layiq görülüb.

Alimin işıq üzü görmüş son biblioqrafiyasında onun 41 kitab, 6 tərcümə əsəri, 19 redaktə kitabı nəşr etdirdiyi və 54 fəlsəfə doktoru, 5 elmlər doktoru yetişdirdiyi göstərilir, 650-yə yaxın elmi və publisistik məqalə nəşr edib. "Quran və elm" kitabı, Azərbaycanca-ərəbcə lüğət (Bakı, 2012,35 min söz) alimin son əsərləridir.

Akademik "Ərəb ədəbi dilində felin zaman, şəxs və şəkil kateqoriyaları", "Bəsrə qrammatika məktəbi", "Kufə qrammatika məktəbi", "Ərəb dilçiliyi" adlı əsərləri ilə ərəb dilçiliyinin ən ümdə məsələlərinin kamil tədqiqatçısı kimi şöhrət qazanıb. Onun elmi nəticələri VII əsrdən bəri Bəsrə, Kufə, Bağdad, Misir və Əndəlus filoloqları arasında böyük diskussiyalar, klassik ərəb dilinin fonetika, morfologiya, sintaksis və leksikologiyasında mübahisə doğurmuş bir çox məsələnin müasir dilçilik elminin nəticələri əsasında aydınlaşdırılmasına əsaslı zəmin yaradır.

Alimin bu əsərlərində bir sıra məsələlər müxtəlif sami dilləri ilə müqayisəli şəkildə araşdırılmış, klassik ərəb dilinin materiallarına müraciət olunub, Azərbaycan, rus, ingilis, fars, tacik və sair dillərin faktlarından müqayisəli şəkildə istifadə olunub. Həmçinin ərəb dilçilik elminin təşəkkülü haqqında yeni mülahizələr irəli sürülüb, müasir dilçiliyin bir sıra cərəyanlarının mövzu ətrafında fikir və mülahizələri geniş təhlil olunub.

V.Məmmədəliyev kökləri orta əsrin dərinliklərinə gedib çıxan Azərbaycan şərqşünaslığının ən layiqli davamçısı, müasir şərqşünaslıq elmimizdə Mirzə Kazım bəy ənənələrinin daşıyıcısıdır. Həqiqətən, əsas tədqiqat sahəsinin ərəb dilçiliyi olmasına baxmayaraq, onun əsərlərində Şərq filologiyası, Şərq poeziyası, islam tarixi, kəlam, fəlsəfə, təfsir, quranşünaslıq, leksikoqrafiyanın ən mühüm məsələləri tədqiq olunmuşdur və o, bu sahələrdə də qiymətli əsərlərin müəllifidir.

Keçmiş Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsi SSRİ-də MDB-də və bütün dünyada yüksək səviyyəli şərqşünas mütəxəssislər hazırlayan məktəb imicini qazanıb. Dünyanın hər yerində Ələsgər Məmmədov kimi ərəbşünas alim-pedaqoqun məktəbinin məzunları seçilib-sayılan ərəbşünaslar hesab edilirdi. Bu məktəbin nümayəndəsi, sonralar isə akademik G.V.Seretelinin nəzəri məktəbini keçmiş Vasim müəllim geniş diapazonlu, universal biliklərə sahib ərəbşünas kimi formalaşıb. Klassik və müasir dilçiliyin bir çox nümayəndələrinin əsərlərinə dərindən vaqif olan və onlara yaradıcı şəkildə şərh verməyi bacaran, dilin ruhunu və məna dünyasını idrak edən Vasim müəllim məhz bu istiqamətdə araşdırmalar aparmağa üstünlük verib.

Akademik ilk dəfə olaraq ərəb qrammatika məktəblərini sistemli şəkildə tədqiq etmiş, məşhur Bağdad, Əndəlus, Bəsrə, Kufə, Misir qrammatiklərinin əsaslandıqları nəzəri və metodoloji prinsipləri yüksək səviyyədə öyrənib. Bir çox qədim ərəb mənbələrindən faydalanan alim ərəb dilçilik elminin əsas inkişaf yollarını izləməklə, bu mühüm qrammatika məktəblərinin təlimlərini müqayisəli şəkildə şərh edib. V.Məmmədəliyev özünün "Ərəb dilçiliyi" adlı fundamental əsərində ilk dəfə olaraq "ərəb dilçiliyinin Azərbaycan məktəbi" ifadəsini işlətmiş və Azərbaycanda dilçilik ənənəsinin çoxəsrlik tarixə malik olduğunu sübuta yetirib. Ümumiyyətlə, akademikin "Ərəb dilçiliyi" monoqrafiyası nəinki ərəb dilçiliyinin ən ümdə məsələlərinin mükəmməl tədqiqi, həmçinin ümumi dilçilik elminin inkişafına təkan verən mühüm bir hadisə kimi dəyərləndirilməlidir. Ərəb qrammatika elminin təşəkkülü və onun məktəblərinin öyrənilməsinə həsr olunmuş bu fundamental əsər Vasim müəllimin dünya şərqşünaslığına layiqli töhfəsidir. Təsadüfi deyildir ki, akademikin bir sıra beynəlxalq elmi konfrans və yığıncaqlardakı məruzələri həmişə sanballı elmi nəticələri ilə ərəb dili mütəxəssislərinin böyük marağına səbəb olub.

Görkəmli şərqşünas alim Azərbaycanda islam dininin elmi əsaslarla öyrənilməsinin təbliği məsələsinin ilk təşəbbüskarlarından olub. Respublikamızda islamla bağlı mövhumat xarakterli ədəbiyyatın yayılmasının qarşısını almaq üçün Qafqaz Müsəlmanları İdarəsinin nəzdində Elmi-Dini Şuranın yaradılması çox önəmli hadisə idi. Təsadüfi deyil ki, belə bir mötəbər şuraya məhz Vasim müəllim başçılıq edirdi.

Müstəqil Azərbaycanda islam dininin mahiyyəti, eləcə də onun incəliklərinə bələd olan yüksək səviyyəli mütəxəssislərin hazırlanması obyektiv bir zərurətdir. Vasim müəllim bu çətin, lakin şərəfli işin də öhdəsindən uğurla gəlirdi.

1991-ci ildə müqəddəs kitabımız Qurani-Kərim mərhum akademik Ziya Bünyadov və akademik Vasim Məmmədəliyev tərəfindən Azərbaycan dilinə tərcümə edilmişdir. Bu, ölkənin elmi-mədəni həyatında mühüm hadisə idi. Tərcümənin nəşri ölkəmizdə İslama, bu dinin tarixinə, fəlsəfəsinə və mədəniyyətinə dair araşdırmalara güclü təkan verdi və Quranın dəqiq məzmunu barədə təsəvvür əldə etməyə imkan yaratdı.

Qurani-Kərim çox bəlağətli, fəsahətli bir dildə nazil olmuşdu. Əsrlər boyu Şərqin ensiklopedik biliklərə malik nüfuzlu alimləri Qurana şərhlər yazmışlar, lakin müqəddəs kitabın bir çox ayələri öz əsrarəngizliyini qoruyub saxlamaqdadır. Qurani-Kərimin nazil olduğu ərəb dili öz leksik fonduna görə dünyanın ən zəngin dillərindən biridir. Qeyd olunan bu faktlar Qurani-Kərimin Azərbaycan dilinə tərcümə prosesinin mürəkkəbliyinə dəlalət edir. Vasim müəllim mərhum akademik Ziya Bünyadovla birgə bu məsuliyyətli işin öhdəsindən şərəflə gəlmiş və Azərbaycan oxucusuna Allah kəlamını ən yüksək səviyyədə çatdıra bilib.

Vasim müəllimin bu tərcüməyə yazdığı "Ön söz" və şərhlər öz elmi siqlətinə, nəzəri əhəmiyyətinə görə son dərəcə maraqlı bir əsərdir. "Ön söz"də əksini tapmış metodiki ideyalar Qurani-Kərimin tərcüməsində tam mənada gerçəkləşib. Məhz bunun sayəsində tərcümə oxucuların rəğbətini qazanıb və bir neçə dəfə nəşr olunub. Qeyd etmək yerinə düşər ki, müqəddəs kitabımızın bu tərcüməsi artıq 17 dəfə yenidən nəşr edilib.

Mərhum akademikin ərəb, fars, türk və bir sıra digər dilləri gözəl bilməsi, Şərq mədəniyyətinin nümunələri ilə yaxından tanış olması, İslam dünyasının böyük alimlərinin, mütəfəkkirlərinin, ədib və şairlərinin əsərlərini dərindən mənimsəməsi onun universal ensiklopedist alim kimi formalaşmasında mühüm rol oynayıb.

Ərəb və fars dillərini mükəmməl bilməsi ona klassik şərq poeziyasının, xüsusilə Azərbaycan klassiklərinin poetik irsinin gözəl bilicisi kimi şöhrət gətirib. Onun təsəvvüf və irfanla bağlı fikirləri Şərq xalqlarının ədəbiyyatındakı mühüm problemlərin öyrənilməsini xeyli asanlaşdırır. Alimin Yaxın və Orta Şərqin korifeylərinin əsərlərini təhlil edən fikir və mülahizələri bir çox mübahisəli məqamlara aydınlıq gətirib. Əruz vəznini mükəmməl bilən V.Məmmədəliyev Azərbaycan divan ədəbiyyatının bir çox nümayəndələrinin əsərlərini səlis şəkildə şərh edib.

Vasim müəllim Azərbaycan musiqi mədəniyyətinin, muğam sənətinin mahir bilicisi idi. O, dəfələrlə muğam gecələrində aparıcılıq etmiş, respublikamızın görkəmli xanəndə və müğənnilərinin yaradıcılıq gecələrində bir mütəxəssis kimi çıxış edib.

Vasim müəllim Azərbaycan elmi və mədəniyyəti tarixində, ərəb filologiyası və ilahiyyat elmlərində görkəmli yer tutan, milli şərqşünaslıq elmimizə böyük töhfələr verən, onu beynəlxalq aləmdə tanıdan və həmişə ən yüksək səviyyədə təmsil edən böyük alim idi. Akademik sorağı müsəlman dünyasının ən böyük elm və tədris mərkəzlərindən gələn orta əsr Azərbaycan alimlərinin ənənəsinə sadiq qalan görkəmli ziyalımız idi.

Vasim müəllim AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu ilə daim sıx elmi əməkdaşlıq edirdi. İnstitutun Dissertasiya Şurasının təşkil etdiyi müdafiələrdə böyük məmnuniyyətlə iştirak edən hörmətli akademik gənc alimlərin hazırlanmasında öz qüvvə və potensialını əsirgəmirdi. Alim illər uzunu böyük zəhmət hesabına əldə etdiyi elm xəzinəsini Azərbaycan elminin gələcəyi yolunda səxavətlə paylayırdı.

Bu gün akademik Vasim Məmmədəliyev haqq dünyasındadır. İnanırıq ki, onun əsərləri hələ uzun müddət şərqşünaslıq elmimizi zənginləşdirəcək, onu yeni-yeni zirvələrə doğru aparacaq.

**Gövhər BAXŞƏLİYEVA,
AMEA Şərqşünaslıq İnstitutunun direktoru, akademik**

## AMEA-nın müxbir üzvü beynəlxalq konfransın texniki komitəsinin üzvü seçilib

**İnformasiya Texnologiyaları İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Ramiz Alıquliyev Kompüter Elmləri və İnformasiya Texnologiyaları üzrə Avropa Konfransının (European Conference on Computer Science and Information Technology - ECCSIT 2021) texniki komitəsinin üzvü seçilib.**




9-11 iyul 2021-ci il tarixlərində Macarıstanın paytaxtı Budapeştdə keçiriləcək konfrans süni intellekt, avtomatlaşdırılmış proqram mühəndisliyi, bioinformatika, kompüter qrafikası və virtual reallıq, kompüter şəbəkələri, kompüter təhlükəsizliyi, Data Mining, rəqəmsal kitabxana, e-ticarət və e-idarəetmə, ekspert sistemlər, insan-kompüter qarşılıqlı əlaqəsi, neyroşəbəkələr, proqramlaşdırma dilləri, sistem təhlükəsizliyi və s. kimi mövzuları əhatə edir.

## Coğrafi adlar və alınma sözlərin düzgün yazılışı ilə bağlı standartlar hazırlanıb

**Azərbaycan Milli Elmlər Akademiyasında müstəqilliyimiz tarixində ilk dəfə olaraq, milli transliterasiya standartları hazırlanıb.**

Bunu Dilçilik İnstitutunun direktor müavini, filologiya üzrə fəlsəfə doktoru Baba Məhərrəmli deyib.

Onun sözlərinə görə, Azərbaycan dilində olan coğrafi adların rus və ingilis dillərinə milli transliterasiya qaydaları hazırlanaraq təsdiq üçün Nazirlər Kabinetinə təqdim edilib. Bununla yanaşı, Azərbaycan dilində olan alınma sözlərin 7 - rus, ingilis, alman, fransız, italyan, ispan, fars dillərində transliterasiya standartları hazırlanıb.

B.Məhərrəmli bu standartların başqa dillərdən keçən sözlərin Azərbaycan dilində düzgün yazılışını nəzərdə tutduğunu söyləyib. O, transliterasiya standartlarının artıq təsdiq üçün Azərbaycan Standartlaşdırma İnstitutuna təqdim edildiyini də xatırladıb.

Alim əlavə edib ki, Dilçilik İnstitutu tərəfindən xəritələrin hazırlanmasında istifadə məqsədilə Azərbaycanın təxminən 4650 yaşayış məntəqəsinin adı rus və ingilis dillərində transliterasiya edilərək Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim edilib.

B.Məhərrəmli qeyd edib ki, indiyədək Azərbaycandakı coğrafi adların başqa dillərə transliterasiyasına rus dilinin təsiri özünü göstərib. Bu da coğrafi adların təhrif edilməsinə səbəb olurdu.

## Sosial-iqtisadi inkişaf səviyyəsini müəyyənləşdirə bilən metodologiya təklif edilib

**AMEA-nın İdarəetmə Sistemləri İnstitutunun laboratoriya rəhbəri, i.e.d., professor Qorxmaz İmanov İspaniya Kral İqtisadiyyat və Maliyyə Elmləri Akademiyasının təşkil etdiyi "Yaşlılıq: bilik, təcrübə və təcrübə" mövzusunda XV beynəlxalq onlayn konfransda iştirak edib.**



Professor Q.İmanov konfransın 4-cü sessiyasının moderatoru olub və "Ölkə inkişafının keyfiyyəti qiymətləndirilməsi" mövzusunda məruzə ilə çıxış edib. O, çıxışında iqtisadi göstəricilərdən (adam başına düşən Ümumi Daxili Məhsul, yaşayış səviyyəsi, dayanıqlı inkişaf, əhatəli inkişaf və s.) istifadə edərək ölkənin sosial-iqtisadi inkişaf səviyyəsini müəyyən edə bilən müxtəlif indekslər təklif edib. Bu alqoritm ölkə inkişafının yalnız kəmiyyət deyil, həm də keyfiyyət səviyyəsini müəyyənləşdirməyə imkan verir.

Təklif edilən metodologiyadakı sosial-iqtisadi inkişaf səviyyəsi indeksinin hesablanması 2015-2018-ci illər üçün Azərbaycanın statistik məlumatları əsasında həyata keçirilib.

# Zirvədən dünyaya səslənən Azərbaycan

**Vətən müharibəsi Azərbaycan bayrağının Qafqazın mədəniyyət beşiyi, Azərbaycanın incisi olan Şuşada dalğalanması - tam Qələbə ilə bitdi.**

44 günlük zəfər yürüşü, haqq-ədalətin bərpa prosesi Şuşa ilə taclandırıldı. Azərbaycan bütün dünyaya həm XXI əsrin yüksək texnologiyalarla aparılan müharibəsini, həm də savaş mədəniyyətini, heç vaxt köhnəlməyən insanlığın ən yüksək nümunəsini göstərdi. Bu müharibədə yalnız haqlı və haqsız tərəflər qaldı. Bu, silahlardan daha çox ağıl və məntiqin, diplomatiya və siyasətin qarşılaşması oldu və daha güclü olan qalib adını qazandı. 44 gün Azərbaycan haqq səsini çatdırmaq üçün bütün beynəlxalq aləmə səsləndi və bu müddət ərzində dünya ictimaiyyətinin diqqəti bizə fokuslandı. Bütün dünya heyranlıqla Lider-Xalq vəhdətinin yüksək nümunəsini, eyni zamanda cəsarətlə mərhəmətin tandemini izlədi. Azərbaycan 44 günlük qısa bir zaman kəsiyi ilə çoxəsrlik müharibə tarixinə yeni bir səhifə yazmağı bacardı. Kiçik ərazisindən qat-qat böyük ruhuna yalnız Qələbənin yaraşdığını əyani şəkildə sübut etdi.

## Keçilən zəfər yolu - xalqın yaddaşının, ruhunun bərpası

Coğrafi mövqeyinə, yeraltı və yerüstü sərvətlərinə görə Azərbaycan daim yadelli işğalçıların marağını çəkib.

Bəlkə də elə bu səbəbdən yurdumuzun övladları həm torpağın verdiyi yüksək istedada, müdrikliyə, həm də döyüşkənlik ruhuna, cəsarətə sahib çıxıblar. Bir tərəfdən, mənsub olduğu sivilizasiyanın qurucularına çevriliblər, digər tərəfdən də öz torpaqlarının azadlığı uğrunda mübarizə aparıblar. Tarixin qızıl səhifələrini də elə bu xüsusiyyətləri ilə yaza biliblər. Azərbaycan dünyada həm Şihabəddin Yəhya Sührəvərdi, Xətib Təbrizi, Məhsəti Gəncəvi və daha neçə filosof və ədibi ilə, həm də Babək, Şah İsmayıl Xətai, Nadir şah kimi görkəmli sərkərdələri ilə tanınır. Bəli, artıq əsrlərdir sübut olunur və XXI əsrdəki Vətən müharibəsi bir daha təsdiqlədi ki, bu millətin genlərində hər iki xüsusiyyət - müdriklik və cəsarət qoşa cəmləşib.

Azərbaycan tam müstəqillik qazanandan sonra sovet imperiyasının tərkibində olduğu 70 il ərzində parçalanmış, təhrif edilmiş tarixini, mənəviyyatını bərpa etməklə yanaşı, həm də XIX əsrin başlanğıcından bu günə kimi bir yara olaraq düz yanında yer alan erməni adlı problemlə də mübarizə aparmalı olub. Bir tərəfdən millətin daxili tarazlığının pozulması, cəmiyyətdə anlaşılmazlığın get-gedə artması, dövlət başına naşı insanların gəlişi, digər tərəfdən də mənfur qonşunun torpaq iddiası Azərbaycanı zəiflətdi və o, vətəndaş müharibəsi ilə üz-üzə qaldı, nəticədə ərazisinin 20 faizini itirdi. Əslində, bu geri çəkilməyin mənəvi yükü, əzabı 20 faizdən qat-qat artıq oldu. Yalnız güclü Lider - Ulu Öndər Heydər Əliyev sayəsində millət tam çökmədi və yoluna davam etməyi bacardı.

Qələbə müəyyən ərazini ələ keçirtmək deyil. Bu səbəbdən 30 il əvvəl öz havadarlarının dəstəyi ilə Azərbaycanı işğal etmiş hayların nə bizim xalq, nə də məsələnin mahiyyətini bilənlər heç vaxt qalib hesab etmədilər. Qələbə üçün ruh bütün qüdrəti ilə ayağa qalxmalı, nəinki düşməni, ölümün özünü belə diz çökdürən iradə səfərbər olmalıdır. Belə olan halda yalnız silahlar deyil, yuxarı qalxan yumruq belə ağır zindan kimi düşmənin başına düşüb onu əzə bilir. Azərbaycan xalqı 30 il səbrlə, təmkinlə dözdü, gözlədi, çünki öz Liderinə inanırdı. Lider - ölkə başçısı

İlham Əliyev isə bütün beynəlxalq səviyyəli görüşlərdə, superdövlətlərin, hayların havadarlarının qarşısında qətiyyətlə vurğulayırdı ki, Azərbaycan ərazisinin bir qarışını belə düşmənə bağışlamayacaq və işğal faktoru ilə barışmayacaq. Eyni sözləri o, artıq azad olunmuş Qarabağda dalğalanan bayrağın altında da təkrarladı: "Bu sözləri demişəm və buna əməl etmişəm. Ərazi bütövlüyümüzü bərpa etmişik, işğalçıları işğal edilmiş torpaqlardan qovmuşuq, ikinci erməni dövlətinin yaradılmasına imkan verməmişik, heç bir status haqqında söhbət gedə bilməz. Vahid Azərbaycan dövləti var. Çoxmillətli, çoxkonfessiyalı, mütərəqqi Azərbaycan dövləti var". Qələbə ruhun, ağılın, səbrin qalib olmasıdır və Vətən müharibəsi məhz bu qüruru yaşatdı vətəndaşlara.




Bəli, 44 gün ərzində xalq yalnız öz ərazisini bərpa edib, düşməni yerində oturtmadı, həm də çoxəsrlik yaddaşını, kimliyini xatırladı, genlərində var olan cəsarətini ayağa qaldırdı, öz mənliyini bərpa etdi. Bu günlər həmişə qürur duyduğumuz tariximizin nağıl, əfsanə deyil, gerçək olduğunu təsdiqləyib möhürlədi. Azərbaycan xalqı heç vaxt qılıncını ağıl olmadan qaldırmayıb, çünki nəticənin özü üçün xəcalət, bəşəriyyət üçün fəlakət olacağından əmindir. Bu gün qələmlə qılınc, ağılla güc ayrılmaz bir vəhdət təşkil etdiyinə görə millət də ikiqat qürur yaşayır. Bu birliyin, bütövlüyün möhtəşəmliyi, böyüklüyü idi ki, bir oğulun yerini min oğul tuta bildi, Ali Baş Komandanın diplomatiya cəbhəsində verdiyi döyüşü, qələmlə yazdığını əsgər öz silahı ilə tamamlaya bildi, hər ikisi bir-birinə sarsılmaz arxa durdu. Bu, elə bir oyanış, milli kimliyə elə bir qayıdış oldu ki, sanki bütün tarixdə olan qəhrəmanlarımızın, şəhidlərimizin, qeyrətli oğullarımızın ruhu da bu böyük orduya qatılıb, düşmənə savaş açdı. Bu bir təsadüf deyildi ki, Ali Baş Komandan Şuşanın alınmasını Azərbaycana çatdırmasında iki çox əhəmiyyətli detalı nəzərə almışdı. Əvvəla, o, bunun Ulu Öndər Heydər Əliyevin vəsiyyəti olmasını vurğuladı, ikincisi isə, bu Qələbəni məhz Şəhidlər xiyabanından - Azərbaycan yolunda canlarını fəda etmiş oğulların yanından bəyan etdi, ilk növbədə, onları müjdələməsi oldu.

## Dünyaya göstərilən nümunə

İnsanın kimliyi, mənəviyyatı daha çox onun qəzəb anında, bütün digər hisslərin yox olduğu, "gözünü qan örtən" məqamında bəlli olur. Kimin nəcib, kimin isə vandal genlərə, vəhşi xislətə sahib olduğu ortaya çıxır. Bu müharibədə sanki insanlığın tamamilə iki zidd qütbü üz-üzə durmuşdu. Bir tərəfdə zülmə məruz qalsa da, 30 il ərzində tamamilə susqun beynəlxalq aləmin laqeydliyi ilə çarpışsa da, öz mərhəmət hissini, imanını, əsl-nəcabətini itirməyən Azərbaycan xalqı, digər tərəfdə isə havadarları hesabına isti yerdə oturmağına, özünə mənsub olmayan torpaqlarda ağalıq etməyinə baxmayaraq, qanındakı barbarlığı daha da artan, vəhşiliyi daha da azğınlaşan haylar. Qarabağda əhaliyə müraciət edən Ali Baş Komandan deyir: "Bizim şəhərlərimiz demək olar ki, yerlə-yeksan edilibdir və bu, düşmənin vəhşiliyini bir daha göstərir. İndi bütün dünya bunu görəcək. Bütün dünya görəcək ki, biz hansı vəhşi düşmənlə üz-üzə qalmışdıq". Ölkə Prezidentinin düşmənin xarabaya çevirdiyi bu torpaqlarda dediyi, daim təkrar etdiyi, xarici jurnalistlərə də israrla eşitdirdiyi bir cümlə var: biz buraları təkrar abadlaşdıracağıq, buraları cənnətə çevirəcəyik! Biz bu yerlərə sülh, sevinc gətirəcəyik! Necə böyük bir paradoks! Aqressiyasını dilsiz heyvana belə göstərməkdən çəkinməyən, hətta bununla fəxr edən düşmənin qarşısında quruculuqdan danışan bir Xalq durur. Bu ruhun, bu nəcib genin daşıyıcısı Ali Baş Komandan deyir: "Kəndlərin, şəhərlərin, infrastrukturun, ekologiyanın bərpası - bütün bu planlar var. Hamısını icra edəcəyik, İnşallah, hamısını! Allahın köməyi ilə hamısını icra edəcəyik. Necə ki, torpaqlarımızı qaytardıq, düşməni məhv etdik, bu üçrəngli bayrağımızı ucaltdıq, bütün qalan məsələləri də həll edəcəyik".

Belə xislətə sahib hayların hansı gen daşıyıcısı olduğunu təyin etmək çox çətindir, ancaq onların bizim qonşu, elə bizim torpaqların üzərində qurduqları dövlətdə yaşamaqları bir faktdır. Belə olan halda nə etməli?! Qarabağda bayrağımızı qaldıran ölkə Prezidenti İlham Əliyev vurğulayır ki, "Bizi sanki bu vəziyyətlə barışmağa sövq edirdilər, sülh yolu ilə məsələ həll olunsun, ildən-ilə, 30 il ərzində biz eyni sözləri eşidirdik - münaqişənin hərbi həlli yoxdur, bu məsələ sülh yolu ilə həll olunmalıdır. Amma biz sübut etdik ki, münaqişənin həlli var, o cümlədən hərbi həlli var. Bizim qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına biz bunu bütün dünyaya sübut etmişik, münaqişənin hərbi həlli var və biz buna nail olmuşuq". Zülmlə barışmaq özü də zalımlığın bir növüdür. İşğalı, vandallığı görüb susmaq özü də ədalətsizliyə yol açmaq, haqsızlığı artırmaqdır. Bunu gözəl dərk edən dövlət başçısı İlham Əliyev bütün dünyaya bəyan etdi ki, "Bu, təkcə Azərbaycanın öz doğma torpaqlarının işğalçılardan azad edilməsi məsələsi deyil. Bu, eyni zamanda bütün dünyaya, bütün işğalçılara göstərir ki, onların sonu bax, belə ola bilər. İşğalçıların, qəsbkarların sonu belə olacaq".

Bu, işin görünən tərəfidir: qəsbkarla onun öz dilində danışmaq, sözlə anlamayana yumruqla anlatmaq taktikası. Amma məsələnin bir də görünməyən tərəfi var. Qaranlıq həmişə işıqdan qorxub, çünki onun ən kiçik şüası ən qatı zülməti yarmağa qadirdir. Hayastan 30 il idi daş beton konstruksiyası quraşdırırdı ki, özünü, işğal etdiyi ərazini qorusun, quldurluğunu gizlətsin. Ancaq Azərbaycan əsgərinin ilk addımında, düşmən generalının da etiraf etdiyi kimi, 15 nəfərin qarşısında 1500 nəfərlik bir ordu fərarilik edib, olduğu məkanı qoyub qaçıb. Əslində, qaçmaq onun tək çıxış yolu, ölməmək üçün yeganə xilası idi. Belə məlum olur ki, Qarabağ torpağı, daşı, meşəsi yad nəfəsi qəbul etməyib, elə bu səbəbdən də düşmən o torpaqlarda heç bir quruculuq işi apara bilmirdi və orada zorla qalmaq istəyirdi, sanki özünü ora betonla pərçimləmək istəyirdi. İlk doğma nəfəsi hiss edəndə isə düşmənin ayağının altındakı torpaq da od tutub yandı, dağdaş da onları lənətlədi. Ali Baş Komandan deyir: "...Bizim parlaq Qələbəmiz təkcə ölkəmizin ərazi bütövlüyünün bərpası deyil. Bu, şərlə xeyir qüvvələrinin mübarizəsidir. Şər qüvvələri məğlub olub, amma biz qalib gəlmişik".

Tarix qəhrəmanları sevir, çünki onların sayəsində bütün dövr şərəflənir, işıqlanır, yeni səhifələr əlavə olunur. Qəhrəman da sıradan bir insandır, sadəcə özündə xalqın bütün uca, ülvi keyfiyyətlərini ehtiva etdiyinə görə bir növ kiçik bir Vətəndir. Onunla üzləşən düşmənin qarşısında sanki bir insan deyil, bütün xalq durur. Qəhrəmanlıq dastanları məhz bu qəhrəmanlar haqqında yazılır. Elə ki, bütün xalqın ali keyfiyyəti, öz coğrafi məkanında oynadığı nəcib rol ön plana keçir, onda həmin xalqın eposu yaranır. Əhəmiyyətli bir faktı xatırladaq ki, hər xalq epos yaratmağa qadir deyil. Məhz belə xalqın tarixində elə səhifələr olur ki, bütün bəşəriyyətə həqiqəti anladan, haqq-ədalətin hər şeydən ucada durduğunu göstərən rəmzlər, məqamlar var. Və eposlar da belə xalqa mənsub olur. Axı eposlar həmin xalqın bəşəriyyət adına atdığı addımın tərənnümüdür. Eposlar xalqın məhz xalq kimi formalaşması prosesini təsvir edir. Hər ikisində də diqqət cəlb edən məsələ belə gələndə, yaxud qələbə və sevincli günlərdə bütün xalqın öz lideri ətrafında birləşməsidir. Yəni eposlarda gücün məhz birlikdə olması ideyası durur. 44 gün həmin eposun yaranması prosesi idi.

## Şuşaya çəkilən yol - İşığın qaranlıq üzərində qələbəsi

Müstəqillik qazanandan bəri Azərbaycan böyük uğurlara imza atıb, ölkə böyük bir inkişaf yolu keçib. Bu müddət ərzində Qarabağ, əvvəllər xəritədə qeyd olunduğu kimi, elə qara rəngdə qalmaqda davam edirdi.

Bəli, inkişaf etmiş, çiçəklənmiş Azərbaycanın içində Qarabağ yox idi, onu da qaytardılar, Vətən bütövləşdi, Azərbaycan "qara ləkədən" qurtuldu. Bayraq sancılandan sonra ilk iş ölkə Prezidentinin ora yol çəkməyə əmr verməsi oldu: "Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür, tarixi bir gündür. Bu gün Füzuli-Şuşa avtomobil yolunun təməli qoyulur. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu yolun çox böyük əhəmiyyəti var. Çünki bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır". Müəyyən mənada bunu Azərbaycanın öz taxt-tacını qaytarmağa da bənzətmək olar. Ali Baş Komandan onu da vurğulayır: "Bu gün bu gözəl təməlqoyma mərasimi böyük rəmzi məna daşıyır. Biz işğaldan azad edilmiş Füzuli şəhərindən və ona qədər olan kəndlərdən Füzuli şəhərinə qədər və Füzuli şəhərindən Şuşa şəhərinə yeni yol çəkirik. Bu yol heç vaxt olmayıb. Azərbaycan vətəndaşları yəqin bilirlər ki, Şuşaya sovet vaxtında yol Ağdam ərazisindən gedirdi - Ağdam-Xankəndi-Şuşa yolu. İndi bu yoldan istifadə etmək hələ ki, mümkün deyil".

Əslində, Şuşaya çəkilən yol özündə bir çox məna kəsb edir. Yaxın keçmişə baxanda bu, 2016-cı ildə Cocuq Mərcanlıya çəkilmiş yolun davamı kimi görünür. Uzaq keçmişə baxanda isə, bu, Ana Torpaq yolunda xalqını öz ətrafında yumruq kimi birləşdirən, həm sözü, həm də qılıncı ilə vuruşan, Vətənin bir qarışını belə düşmənə verməyən, Vətənin hər daşını müqəddəs bilən və onun paklığını qoruyan sərkərdələrin yolunu görmək mümkündür. Bu yol Xalqının ruhunu tanıyan, bu ruhu əziz bilən Liderin yolunun davam etməsidir. Məhz xalqının tarixini, onun şərəfli səhifələrini, xalqının bacarığını nəzərdə tutan Ali Baş Komandan deyir ki, "Bu Qələbə bizim xalqımıza yaraşır, igid oğullarımıza yaraşır, dövlətimizə yaraşır və bu Qələbə gücümüzü göstərdi".

Şuşaya çəkilən yolun daha bir rəmzi mənası da var. Zəfər bayrağını Qarabağda qaldıran İlham Əliyev deyir: "Bu 44 gün ərzində demək olar ki, müntəzəm surətdə müxtəlif mənbələrdən, müxtəlif ünvanlardan müxtəlif təzyiqlər, təhdidlər olurdu, sifarişlər, mesajlar, siqnallar göndərilirdi. Mən demişdim ki, heç kim bizim qabağımızda dura bilməz, sona qədər gedəcəyik". Bəli, ilk gündən dövlət başçısı vurğulayırdı ki, bizim yolumuz haqq yoludur. Prezidentdən müsahibə götürən hər jurnalistə, hər nümayəndəyə təkrar-təkrar çatdırırdı ki, Azərbaycan öz ərazilərində ədalətin bərpası üçün vuruşur və bizi bundan heç kim döndərə bilməz. Şuşaya çəkilən yol məhz həmin Yoldur - heç bir qara qüvvənin mane ola bilmədiyi, heç bir hədədən çəkinmədən sona qədər davam edən müqəddəs Haqq yolu. Məhz bu yolun verdiyi güc, qüdrət Azərbaycan xalqına zəfər çalmaqda, müqəddəs torpağına qayıtmağa imkan verdi. Ali Baş Komandanın dediyi kimi: "Haqq-ədalət zəfər çaldı. Müzəffər Azərbaycan Ordusu zəfər çaldı. Düşmən bəli qırıldı. Düşmən torpaqlarımızdan qovuldu. Azərbaycan bayrağı işğaldan azad edilmiş torpaqlarda qaldırıldı və əbədi dalğalanacaq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

**Könül BÜNYADZADƏ,**
**Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri,**
**AMEA-nın müxbir üzvü**

# 28 illik dinməyən göz yaşları

**Həmişə haqqı danışmaq, haqqı savunmaq lazımdır ki, söylədiklərini inkar etmək məcburiyyətində qalmayasan, nəticə etibarilə yalançı adlanırsan**

"Azərbaycan heç bir təxribata əl atmamışdır. Azərbaycan sadəcə olaraq öz maraqlarını müdafiə edir, öz mövqeyini dəstəkləyir və öz siyasətini alnıaçıq aparır. Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir. Ermənistanın baş naziri deyəndə "Qarabağ Ermənistandır", bu, yalandır. Mən deyəndə ki, "Qarabağ Azərbaycandır", bu, həqiqətdir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır... Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir.."...

Haqsızlıq və hətta vəhşilik qurbanı Xocalı sakinləri

Xocalı... Ağrılı-acılı, dərdli Xocalı... Minillər keçsə də unudulmayacaq acı bir qan yaddaşı. O faciənin canlı şahidi olmasam da, Xocalı sakinlərinin şaxtalı meşələrdə çəkdikləri acı qədər olmasa da, hər il fevralın 26-da qətliam qurbanı olanların acısını duyanların hər biri kimi mən də yanmışam bu dərdə. Xocalı ilə bağlı mövzunu tədqiqat məqsədilə seçənədək düşünmürdüm bunu yazmağın bu qədər çətin olacağını. Qələmə almaq bu qədər çətindirsə, onu yaşamaq gör nə qədər dəhşətlidir. Ekranlardan izləməyə, Xocalı adlı dərddən yaranan sətirləri oxumağa dözməmişkən onlar bununla üz-üzə dayandılar. Cəmiyyətdə ən xırda haqsızlığa qarşı etiraz edib mübarizə apardığımız halda, Xatın, Xirosima, Sonqmi, Naqasaki kimi faciələrlə eyni sırada dayanan bir vəhşətin günahsız qurbanlarını təsəvvür etmək ağırdı, olduqca ağır... Dağılan tifaqlar, yarımçıq qalan nigahlar, ömür boyunca yaddaşlardan silinməyəcək acı xatirələr, kökü kəsilənədək qırılan nəsil, övladların gözü önündə yandırılan atalar və ataların gözü önündə məhv edilən balalar, körpə, yazıq, günahsız, məzlum balalar... Bəs anasız qalan körpələr necə olsun...

*Nə idi bu ilahi*
*Bu boyda dərdmi olar?*
*Nə qədər qəddar imiş*




*Erməni faşistləri.*
*Qaytarın anamı mənə*
*Qaytarın gülüşümü,*
*Təbəssüm verin mənə*
*Uşaqlığımı qaytarın*

***

*Buna çaylar şahiddi*
*Tüstüsü göyə qalxan meşələr buna şahiddi*
*Həmin gün qan ağlayan təbiətin özü də,*
*Ananın fəryadına, atanın məhşərinə göyün üzü şahiddi.*

Bəli, bu faciəni ancaq dini, imanı, Allah qorxusu olmayan erməni milləti törədə bilərdi... Bu gün öz qurduğu evi belə yandırmağı bacaran, insanların Allahla üz-üzə qalıb hüzur tapdığı, ibadət deyilən o müqəddəs məkanları, məscid və kilsələri məhv edən, öz əsgərinə, millətinə qarşı davranışını bilməyən, öz maraqları meydana gələndə gözü heç nəyi görməyən ermənilər...

Xocalı harayı, üzünü cıran o ananın fəryadı, erməni cəlladlarının ad günü hədiyyəsi olsun deyib Əhmədin əlinə neçə yerdən güllə atması, Həcərin atasız qalması, Əhmədin başının kəsilib top kimi erməni əsgərlərinin ayaqları altında yuvarlanması, üç övladından birinin meyidini meşədə qoymağa məcbur olub, ikisini özüylə salamat gətirib çıxaran Məlahət ana, yaralı erməni əsgərini daşımaqdan imtina etdiyinə görə qızı Xəzəngülün gözü qarşısında üzərinə benzin tökülüb yandırılan Təfəkkür, əsirlikdə ölənəcən döyülən Mehman və Rəhim və daha minlərlə bədbəxt olmuş Qarabağ qurbanları... Ancaq ermənilərin apardığı savaş bu qədər şərəfsiz ola bilərdi.

Bir an olsun belə buna susmamalı, sonunadək günahsız insanların intiqamının alınması üçün, qatilin cəzasını çəkməsi üçün əlimizdən gələni etməliyik. Ədalət və haqsızlıq anlayışı vahiddir. Hər zaman bir doğru, bir həqiqət vardır... Xocalı tək azərbaycanlılara qarşı deyil, bütün bəşəriyyətə, insanlığa qarşı törədilmiş cinayətdir.

Xocalıda baş verənlərə etirazını bildirən erməni fəalları, o cümlədən ictimai xadim və məşhur erməni yazıçısı Anna Payatyan öz feysbuk səhifəsində Levon Ter-Petrosyan, Vazgen Sarkisyan, Robert Koçaryanı günahlandıraraq onları uşaq və qadın qatilləri adlandırmışdı: "Xocalıda soyqırım olub!!! Və bunun üçün quldurlar cavab verməlidir - Njde tərəfdarları. Onlar əsgər deyillər, cinayətkar və qatildirlər. Levon Ter-Petrosyan, Vazgen Sarkisyan, Robert Koçaryan, Serj Sarkisyan, Arabo qrupu. Onların hamısı uşaqların və qadınların qatilləridir!".

Erməni vəhşiliklərinə etiraz edən Mesrop Martirosyan ABŞ-da siyasi sığınacaq alaraq hərbi xidmətdən imtina etmişdi. Amerikadakı məhkəmə zamanı şahidi olduğu vəhşiliklərdən danışmışdı: "Düşərgələrdə əldən düşmüş, şilküt edilmiş, bədəni kəsik-kəsik olan hərbi əsirlər görmüşəm. Uşaqların kəsilmiş qulaqlarla oynadığını görmüşəm".

O faciədən sağ çıxan hər bir insan Xocalıda şahidi olduqlarını əsla unutmayacaq, nəfəs alıb verdikcə, həmin anları yenidən yaşayacaq. Amma bu gün acılı göz yaşı sevinc göz yaşı ilə əvəzləndi. Çünki qucaqda göndərdiyiniz körpələr əli silahlı, tank belində geri qayıtdılar. Qisasımızı aldılar! Şanlı Azərbaycan ordusu, vətənpərvər, gözü qisas eşqi ilə parlayan əsgərlərimiz, igid oğullarımız millətimizə, hərbi əsirlərimizə işgəncələr verilməsi, mülki şəxslərin girov götürülməsi və işgəncələrə məruz qoyularaq öldürülməsi kimi cinayətlərin törədilməsində iştirak etmiş bir çox erməni vandallarını Böyük Vətən müharibəsində məhv etdi.

İntiqamın alınıb, ruhun şad olsun şəhidim, məzarında hüzurla yat!

**Gülnar HACIYEVA,**
**AMEA Rəyasət Heyəti aparatının Mətbuat və informasiya şöbəsinin müdir müavini**

## Professorun Xocalı soyqırımına dair məqaləsi İordaniyada çap olunub

**AMEA-nın Azad Həmkarlar İttifaqının sədri, professor Habil Qurbanovun "Xocalı soyqırımı və qadın hüquqları" adlı məqaləsi İordaniya Haşimilər Krallığının geniş oxucu kütləsinə malik "Neyruz" xəbər agentliyində nəşr (ərəb və rus dillərində) edilib.**

Məqalədə Xocalı soyqırımı haqqında ətraflı məlumat verilib, erməni vandalizmi nəticəsində dəymiş mənəvi və maddi zərərlərə toxunulub. Bununla yanaşı, erməni hərbi birləşmələri tərəfindən Xocalı qətliamında qadın və uşaqlara qarşı həyata keçirilmiş vəhşilik haqqında geniş məlumat təqdim olunub.

## Qarabağın mədəni və dini irsi ilə bağlı müsahibə yayımlanıb

**AMEA-nın Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Mübariz Ağalarlı "Moskva-Baku" informasiya portalına işğaldan azad edilən Qarabağın mədəni və dini irsi ilə bağlı müsahibə verib.**

Alim müsahibəsində Qarabağda Azərbaycan xalqının çoxsaylı tarixi mədəni irsinin cəmləşdiyini, lakin işğal illərində abidələrin, muzeylərin, məscidlərin dağıdıldığını, talan edildiyini söyləyib. M.Ağalarlı tarixi, mədəni və dini obyektlərin bərpasının nəzərdə tutulduğunu bildirib.

# Bizim zəfər yürüşümüz

**Son günlər hər birimiz Azərbaycanın şanlı tarixi günlərini yaşayırıq. Müzəffər ordumuz Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın yeni tarixini yazdı. Bu gün bütün Azərbaycan gəncləri cənab Prezidentin ətrafında bir yumruq kimi sıx birləşərək ona öz dəstəklərini ifadə edirlər. Azərbaycan gəncləri həm ön cəbhədə, həm də arxa cəbhədə - informasiya müharibəsində də düşmənin layiqli cavabını verdilər.**



Bu günlərdə Azərbaycan gəncləri onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirməklə yanaşı, dövlət başçısının müəyyən etdiyi strateji əhəmiyyətli vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsinə, ölkəmizin inkişaf edən qüdrətli dövlətə çevrilməsi prosesinə öz töhfələrini verməyə çalışırlar. Gənclərimizin doğma vətənimizin müdafiəsində, torpaqlarımızın işğaldan azad edilməsində, ərazi bütövlüyünün bərpa edilməsində, daima ön cərgələrdə olmaları və bu yolda canlarını qurban verərək şəhidlik zirvəsinə yüksəlmələri ilə bütün Azərbaycan xalqı fəxr edir. Qürurverici haldır ki, Azərbaycan ordusu sıralarında vətənin müdafiəsi kimi müqəddəs bir vəzifəni şərəflə yerinə yetirən şəxsi heyətin böyük əksəriyyəti gənclərdən ibarətdir. 2020-ci ilin 27 sentyabr tarixində başlanan əks-hücum əməliyyatlarında iştirak edən gənclərimiz, həmin tarixdən bu günə kimi illər ərzində işğal altında qalan torpaqlarımızın böyük hissəsini işğalçılardan azad ediblər. İndi həmin torpaqlarda - Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarında, Hadrut, Ağbənd qəsəbələrində, Suqovuşanda və noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük fəxarət və qürur hissi ilə elan etdiyi "Qarabağın mirvarisi" Şuşa şəhərində Azərbaycan bayrağı dalğalanır. Bu böyük tarixi qələbədə gənclərimiz əsl şücaət və qəhrəmanlıq nümayiş etdirdilər. Dövlət başçısı öz çıxışlarında ordumuzun uğurlarını yüksək qiymətləndirərək bildirmişdir: "Döyüş qabiliyyətinin artırılması ordu quruculuğu sahəsində əsas amildir. Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik. Torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azərbaycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir. Eşq olsun bizim əsgərlərimizə!"

Bu gün Azərbaycanın yenilməz ordusu dünya miqyaslı ordular sırasındadır.

8 noyabr tarixində Şəhidlər Xiyabanını ziyarət edən cənab Prezidentin "Mən bu gün eyni zamanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük qələbədir! Şəhidlərimizin, ulu öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!" sözlərini dinləyərkən bütün Azərbaycan xalqı qürur hissi keçirirdi və bu kəlmələr bir daha sübut etdi ki, Ali Baş Komandan cənab İlham Əliyev ulu öndər Heydər Əliyevin siyasətini layiqincə davam etdirir.

Daim Azərbaycanın yanında olan və ona dəstək olan qardaş Türkiyə dövlətinin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan Türkiyənin Kocaeli vilayətində keçirilən konqresdəki çıxışında Azərbaycan xalqını Şuşa zəfəri münasibətilə təbrik etdi: "Şuşa zəfərini təbrik edirəm. Azərbaycanlı qardaşlarımızın sevinci bizim də sevincimizdir. Şuşanın qurtuluşu işğal altında qalan digər torpaqların da azad ediləcəyinin yaxın olduğunu göstərir". 10 noyabr qələbə günündə isə Türkiyə dövləti xalqımızı möhtəşəm qələbə münasibətilə təbrik edərək bildirib: "Azərbaycan özünün hərbi və siyasi gücünü sübut edərək tarixi qələbə qazandı. Beynəlxalq hüquq Azərbaycanın tərəfindədir və Türkiyə hər zaman qardaş Azərbaycan xalqına dəstək olacaq".

Bu zəfər günündə Azərbaycan və Türkiyə bayraqları yanaşı dalğalanır. Bu cür qürur doğuran mənzərələr Azərbaycan-Türkiyə qardaşlığının daima davam edəcəyini bildirir.

Azərbaycan ordusunun Şuşa döyüşlərində göstərdiyi cəsurluq və şücaətləri xarici media mənbələrində də işıqlandırılıb. Rusiya medialarından birində qeyd olunur: "Belə döyüş, dövlət, vətən sevgisi görən olubmu, demək çətindir?! Dağ yuxarı, şəhidi çiynində, döyüşə - döyüşə qan, tər içində qalxırdı Azərbaycan ordusu. Nə yaralını, nə şəhidi əldən buraxırdılar. Nəfəs almadan Şuşaya çıxdılar...". Şanlı ordumuz haqqında bu cür məlumatların işıqlandırılması onun yenilməz gücünün artıq digər dövlətlər tərəfindən tanınmağına da bariz nümunədir.

Bu gün respublikamızda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik olan gənclər formalaşıb. Azərbaycan gənclərinin dövlətimizin ictimai-siyasi həyatında rolu hər gün artmaqdadır və hazırda respublikada mövcud olan gənclər təşkilatları dövlətin yaratdığı şərait sayəsində fəaliyyət göstərir. Məhz dövlət başçısının gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində öz gücünə, istedadına inam hissi artıb. Gənclər də öz növbəsində dövlətin bu qayğısını həmişə hiss edərək öz nailiyyətləri ilə onlara göstərilən etimadı layiqincə doğrultmağa çalışırlar. Son günlər Azərbaycanın hər bir vətəndaşı, xüsusən də gənclər informasiya müharibəsində çox fəal oldular və düşmənə adekvat cavab verdilər. Qarabağ həqiqətlərinin dünyaya, xüsusən də münaqişələrin həlli ilə məşğul olan beynəlxalq təşkilatlara çatdırılması üçün bütün imkanlardan istifadə etdilər.

Bu şanlı günlərdə bütün dünya azərbaycanlıları cənab Prezidentə öz dəstəklərini nümayiş etdirir və onlara yaşatdığı bu tarixi, qürurverici günlər üçün dərin minnətdarlıqlarını bildirirdilər. Prezident cənab İlham Əliyev isə bu dəstəyi yüksək qiymətləndirərək öz çıxışında xüsusilə vurğulayıb: "Mən bu günlərdə dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Hər gün minlərlə məktub. Sadəcə olaraq, heyfsilənirəm ki, bütün bu məktubları oxuya bilmirəm. Sadəcə olaraq, vaxt çatmır. Nə qədər gözəl sözlər, nə qədər böyük dəstək göstərilir. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!"

Gənclərimizin ordu sıralarında torpaqlarımızı azadlığı uğrunda vuruşmaları bütün xalqımızı hədsiz qürurlandırır və fərəhləndirir. Mübariz əsgər və zabitlərimizin düşmənə sarsıdıcı zərbələr vurması bizi hər gün zəfərə bir addım da yaxınlaşdırırdı.

2020-ci ilin 10 noyabr tarixi bütün Azərbaycan xalqı üçün yeni zəfər dolu qələbə günü ilə başladı. Bu gün hər birimiz qürur, böyük sevinc hisləri yaşayırıq. Biz Qarabağ uğrunda aparılan döyüşləri zəfər ilə başa çatdırdıq. Torpaqlarımızı ordumuzun gücü və əsgərlərimizin qəhrəmanlığı sayəsində qarış-qarış əldə etdik. Azərbaycanın Vətən müharibəsi nəticəsində öz ərazi bütövlüyünü bərpa etməsi böyük qələbədir və Azərbaycan xalqı tarixi qələbəsini də öz müdrik rəhbərinin başçılığı ilə qazandı.

Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!

**Tünzalə MUSAYEVA,**
**AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri**

YENİ NƏŞR

## Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun alimlərinin yeni kitabı

**AMEA-nın vitse-prezidenti, Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun direktoru, akademik Dilqəm Tağıyev, müəssisənin əməkdaşları Əli Yaqubov, Səadət Məmmədova və Elmira Teymurovanın həmmüəllifi olduğu "Təbii və tullantı sularının sorbsiya metodları ilə tənzimlənməsi" kitabı rus dilində işıq üzü görüb.**




Müvafiq təmizlənmədən sonra çirkab sularının təkrar emalı və istifadəsi, eləcə də təbii suların təmizlənməsi və istifadəyə verilməsi su ehtiyatlarının tükəndiyi hazırkı durumda mövcud olan böhran vəziyyətlərinin uğurla həllinə kömək edə bilər. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 27 iyul 2020-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı"nda alternativ mənbələrdən, o cümlədən qrunt, təmizlənmiş tullantı, kollektor-drenaj sularından, balıqçılıq təsərrüfatlarında istifadə olunan sulardan və Xəzər dənizinin suyundan istifadə imkanlarının araşdırılması ilə bağlı AMEA alimləri qarşısında da vəzifələr qoyulub.

Qeyd olunanları nəzərə alaraq çap edilən kitabda təbii və tullantı sularının təmizlənməsi məsələləri araşdırılaraq işıqlandırılıb. Yeni nəşrdə təbii və tullantı sularının zərərli və bioloji cəhətdən oksidləşməyən üzvi və qeyri-üzvi maddələrdən, ağır metal ionlarından aktiv kömür, mineral və sintetik materiallarda təmizlənməsində sorbsiya üsullarının üstünlüklərindən bəhs edilib. Həmçinin monoqrafiyada suyun təkrar istifadəsinə, bunun şəhər su təmizləyici qurğularında tullantı məhsullarının azalmasına təsiri, tullantı sularının təkrar emalında qapalı sistemlərin əsas prinsiplərindən və sorbsiya proseslərində işlənmiş sorbentlərin bərpası texnologiyasına geniş yer verilib.

## "İranda Azərbaycan tarixi məsələləri" kitabı işıq üzü görüb




**AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix elmləri doktoru Eynulla Mədətlinin "İranda Azərbaycan tarixi məsələləri" kitabı çapdan çıxıb.**

Nəşrin elmi redaktoru və "Ön söz"ünün müəllifi AMEA-nın Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov, rəyçiləri tarix elmləri doktoru, professor Şahin Fərzəliyev və tarix elmləri doktoru Tofiq Nəcəflidir.

Monoqrafiyada Azərbaycanın tarixi coğrafiyası, dövlətçilik tarixi, Azərbaycan xalqının təşəkkülü, dili və mədəniyyəti məsələlərinə İran tarixçilərinin münasibəti aydınlaşdırılıb. Xüsusilə Cənubi Azərbaycanda 1905-1911-ci illər milli demokratik hərəkatı və 1920-ci ilin aprel-sentyabr aylarında Şeyx Məhəmməd Xiyabani və 1945-1946-cı illərdə Seyid Cəfər Pişəvəri hərəkatının İran tarixşünaslığında tədqiqi və dəyərləndirilməsi öyrənilib, dövrün qaynaqlarından istifadə olunmaqla hərtərəfli təhlil edilib.

Bundan əlavə, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və İranla qarşılıqlı əlaqələrinin, Sovet dövründə Azərbaycan-İran münasibətlərinin, eləcə də müstəqil Azərbaycan Respublikası tarixi məsələlərinin İran tarixşünaslığında əksi geniş araşdırılıb.

Vəsait XX əsr Azərbaycan tarixi məsələlərini öyrənən tədqiqatçılar və tələbələr, həmçinin geniş oxucu dairəsi üçün nəzərdə tutulub.

## "Qarabağ folkloru: janr poetikası və mərasim ənənələri" kitabı nəşr olunub




**AMEA-nın Folklor İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Sönməz Abbaslının "Qarabağ folkloru: janr poetikası və mərasim ənənələri" adlı kitabı nəşr olunub.**

Qarabağın folklor mühitindən bəhs edilən nəşrin elmi redaktoru folklorşünas alim, filologiya üzrə elmlər doktoru, professor Cəlal Bəydilidir.

Folklor İnstitutunun Elmi şurasının qərarı ilə çap olunan kitab Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağ torpaqlarını işğaldan azad edən şanlı ordumuzun parlaq qələbələrinə ithaf edilib.

## İşğaldan azad olunan Kəlbəcər rayonunun "Azersky" peykindən əldə edilmiş təsviri



27 ildən sonra Kəlbəcər rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalına son qoyulub.

"Azərkosmos" ASC Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad olunduqdan sonra "Azersky" peyki ilə çəkilmiş təsvirini təqdim edib.

## Azərbaycanlı alimlərin adları yenidən "Dünyanın ən nüfuzlu elm adamları" siyahısında

**ABŞ-ın Stanford Universitetinin mütəxəssisləri tərəfindən "Dünyanın ən nüfuzlu elm adamları"nın siyahısı tərtib olunub. Siyahıya azərbaycanlı alimlərin də adları daxil edilib.**



Siyahı elmi istinad indeksi istifadə edilərək, dünyadakı elm adamlarının fəaliyyətinin qiymətləndirilməsi məqsədilə hazırlanıb. Qiymətləndirmənin nəticəsi olaraq dünya üzrə müxtəlif ixtisasda 159 min 684 alimin adı "Plos biology" jurnalında nəşr olunub.

Siyahıya daxil edilən doqquz azərbaycanlı elm adamından dördü Türkiyədə fəaliyyət göstərir. Onlar Türkiyənin "Süleyman Dəmirəl Universiteti"nin İnşaat mühəndisliyi bölümünün müəllimi Abdullah Sofiyev, "Orta Doğu Teknik Universiteti"nin Fizika bölümünün müəllimi Təhmasib Əliyev, "Çanaqqala Onsekiz Mart Universiteti"nin müəllimi İsrafil Hüseynov və "Yıldız Teknik Universiteti"nin Mexanika mühəndisliyi bölümünün müəllimi Surxay Əkbərovdur.

Qeyd edək ki, professor İsrafil Hüseynov vəfat edib.

## AMEA-nın müxbir üzvü BMT-nin beynəlxalq şəbəkəsinin nümayəndəsi təyin olunub

**Torpaqşünaslıq və Aqrokimya İnstitutunun laboratoriya rəhbəri, AMEA-nın müxbir üzvü Amin İsmayılov BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Qlobal Torpaq Tərəfdaşlığı (GSP) proqramı üzrə Torpaq İnformasiyaları İnstitutları Beynəlxalq Şəbəkəsinin (INSII) Azərbaycanda nümayəndəsi təyin olunub.**



Bu haqda FAO-nun GSP katibliyinin məlumatında qeyd edilib. Bildirilib ki, hazırda torpaqda üzvi karbon potensialının qlobal xəritəsinin (GSOCseq) hazırlanmasına start verilib. Hər bir ölkə üzrə analoji xəritələr INSII-nin milli nümayəndələri tərəfindən FAO-ya təqdim olunacaq.

GSOCseq xəritəsi davamlı torpaq idarəetməsi nəticəsində atmosferdən torpaqlara karbonun toplanmasına potensial təsirini qiymətləndirmə prosesinə əsaslanan RothC modelləşdirmə yolu ilə hazırlanan qlobal bir xəritə olacaq. GSOCseq modelləşdirməsinin elmi və texniki mürəkkəbliyini, əvvəlki GSP layihələrində ilk torpaq üzvi karbon ehtiyatlarının qlobal xəritəsinin tərkib hissəsi kimi milli xəriteni hazırlaması və bu sahədə müsbət təcrübəsini nəzərə alaraq Amin İsmayılovun Azərbaycan üzrə INSII-nin nümayəndəsi təyin olunması tövsiyə edilib.

Bu istiqamətdə fəaliyyətin ilkin mərhələsi kimi 16-20 noyabr 2020-ci il tarixlərində videokonfrans vasitəsilə FAO-nun Romadakı Baş ofisində 5 günlük təlim keçirilib. Amin İsmayılovun təklifi ilə rəqəmsal torpaq xəritəçiliyi üzrə daha iki azərbaycanlı gənc mütəxəssis də bu təlimlərdə iştirak ediblər.

## "Elm" nəşriyyatının direktoru Beynəlxalq Elmlər Akademiyaları Assosiasiyasının Elmi şurasının üzvü seçilib

**AMEA "Elm" nəşriyyatının direktoru, filologiya üzrə fəlsəfə doktoru Səbuhi Qəhrəmanov Beynəlxalq Elmlər Akademiyaları Assosiasiyasının (BEAA) Kitab nəşri və kitab mədəniyyəti üzrə Elmi şurasının üzvü seçilib. Bu Elmi şuraya üzvlük akademik kitab nəşri sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsinə imkan yaradır.**

Qeyd edək ki, 1993-cü ildən fəaliyyət göstərən BEAA-da 24 elmi şura fəaliyyət göstərir. Bu qurumlardan biri də Kitab nəşri və kitab mədəniyyəti üzrə Elmi şuradır. Qurum öz fəaliyyətini elmi, elmi-texniki və soraq-məlumat ədəbiyyatının beynəlxalq mübadiləsinin inkişafına əsaslanan informasiya məkanının formalaşması, akademik kitab nəşri sahəsində dövlətlərarası elmi və mədəni əlaqələrin genişləndirilməsi kimi istiqamətlər üzrə həyata keçirir. Bundan əlavə, şura akademik kitab nəşri və kitab mədəniyyəti sahəsində müştərək nəşriyyat layihələri və tədqiqat proqramlarının əlaqələndirilməsi, müsabiqə və elmi forumların keçirilməsi və s. vəzifələri icra edir.

## Nar qabıqlarından hazırlanmış reagent neft quyularının qazılmasında uğurla tətbiq olunur

**AMEA-nın Yüksək Texnologiyalar Parkının (YT Park) rezidenti olan "Aşqar" Elmi İstehsalat Birliyində (EİB) akad. Ə.Quliyev adına Aşqarlar Kimyası İnstitutu (AKİ) ilə birlikdə neft-qaz quyularının qazılmasında istifadə edilən buruq reagentinin keyfiyyətinin müasir tələblərə uyğun daha da təkmilləşdirilməsi istiqamətində tədqiqatlar aparılıb.**

AKİ tərəfindən ilk dəfə olaraq qətransız müalicəvi Naftalan neftinin alınma texnologiyası işlənilib və onun "Aşqar" EİB-də təcrübi qurğuda istehsalı təşkil edilib.

"Aşqar" EİB-də AKİ ilə birlikdə neft-qaz quyularının qazılmasında istifadə edilən buruq reagentinin keyfiyyətinin müasir tələblərə uyğun daha da təkmilləşdirilməsi istiqamətində tədqiqatlar aparılıb. Tədqiqatlar nəticəsində respublikada nar şirəsi istehsalı zamanı tullantı kimi alınan nar qabıqları əsasında quru tozvari reagent hazırlanıb və onun neft-qaz quyularının qazılmasında istifadəsi təklif edilib.

Bu təklif Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) razılığı ilə Siyəzəndə qazılan neft quyusunda böyük müvəffəqiyyətlə sınaqdan keçirilib, əldə olunan nəticələr ARDNŞ-ə təqdim olunub.

Xarici şirkətlər və investorların də diqqətini cəlb edən bu kimi tozvari reagentlərlə dənizdə neft quyularını qazmaq çox sərfəlidir və daha səmərəli nəticələr verir.

Qeyd edək ki, hazırda Aşqarlar Kimyası İnstitutunda yeni yaradılıb və tətbiq üçün tövsiyə edilmiş bəzi elmi-tədqiqat işlərinin nəticələrinin də "Aşqar" EİB-də reallaşdırılması istiqamətində tədbirlər görülür.

Müsabiqə

## Fəlsəfə və Sosiologiya İnstitutu

**AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu vakant vəzifələri tutmaq üçün müsabiqə elan edir.**

Vakant yerlər müəssisənin Müasir siyasətin fəlsəfəsi, Sosiologiya, həmçinin Məntiq şöbələrinin elmi işçisi vəzifəsinə bir yerdir.

Sənədlər müsabiqənin tələblərinə uyğun olaraq, elan dərc edilən gündən etibarən 1 ay müddətində müəssisənin elmi katibliyinə təqdim edilməlidir.

**Ünvan: Bakı ş., H.Cavid pr., 115**
**Tel.: (+994 12) 510 15 12**

**Redaksiya heyəti:**
Ramiz Mehdiyev, İsa Həbibbəyli, İbrahim Quliyev,
Tofiq Nağıyev, Dilqəm Tağıyev, Nərgiz Paşayeva, İradə Hüseynova,
Rasim Əliquliyev, Əminağa Sadıqov, İsmayıl Hacıyev, Fuad Əliyev,
